On July 21-24 Prof. Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, was hosted by the famous "Fazioli" company in Italy which produces musical instrument – grand piano.

Within the trip Prof. Isakhanli met with Paolo Fazioli, the owner of the company, as well as got to know closely the company and its work.


PIANOS





# XƏZƏR UNİVERSİTETİNİN MBA PROQRAMLARI ƏN YAXŞI MAGİSTRATURA PROQRAMLARI ARASINDA

# MBA PROGRAMS OF KHAZAR UNIVERSITY AMONG THE BEST MASTERS PROGRAMS 2019

İyulun 25-də "Eduniversal" 50 təhsil sahəsi üzrə dünyanın ən yaxşı magistratura və MBA proqramlarının rəsmi reytinqini dərc etmişdir.

Xəzər Universitetinin İqtisadiyyat və Menecment fakültəsinin aşağıda adları sadalanan ixtisas proqramları 2019-cu ilin Ən Yaxşı Magistratura və MBA Proqramları Sırasında yer almışdır:

**MBA – Biznesin təşkili və idarə edilməsi (menecment üzrə)**

- 9 coğrafi zona üzrə regional sıralamada ən yaxşı 200 universitet arasında
- Ümumi Menecment üzrə Avrasiya və Orta Şərqdə 10-cu yer

**MBA - Biznesin təşkili və idarə edilməsi (enerji menecmenti üzrə)**

- 9 coğrafi zona üzrə regional sıralamada ən yaxşı 200 universitet arasında
- Enerji və Təbii Sərvətlər üzrə Avrasiya və Orta Şərqdə 5-ci yer

Xəzər Universitetinin və İqtisadiyyat və Menecment fakültəsinin əməkdaşlarını və müəllim heyətini təbrik edir və uğurlarının davamını diləyirik!

*http://www.best-masters.com/master-at-khazar-university--s məktəb-of-iqtisadiyyat- və idarəetmə.html*

Ölkə mediası bu barədə xəbər yaymışdır:

*https://azertag.az/xeber/Xezer_Universitetinin_MBA_proqramlari_Eduniversal_agentliyinin_reytinq_siyahisina_daxil_edilib-1316029*

*http://tehsil-press.az/index.php?newsid=41840#newsbase1*

*https://salamnews.org/az/news/read/356267* və s.

On July 25, Eduniversal published its official Ranking of the best Masters and MBA Programs in 50 fields of study worldwide.

We are to inform you that the following Master's degree specialization programs of the School of Economics and Management (SEM) of Khazar University are ranked in the Best Masters and MBA Ranking 2019:

**MBA in Management**

- Top 200 - Regional ranking within the 9 geographical zones
- Ranked No. 10 in General Management, Eurasia & Middle East

**MBA in Energy Management**

- Top 200 - Regional ranking within the 9 geographical zones
- Ranked No. 5 in Energy and Natural Resources, Eurasia & Middle East

We congratulate Khazar University and the faculty members and staff of the School of Economics and Management for excellent work and wish them further success!

*http://www.best-masters.com/master-at-khazar-university--school-of-economics-and-management.html*

Country's media reported on this:

*https://azertag.az/xeber/Xezer_Universitetinin_MBA_proqramlari_Eduniversal_agentliyinin_reytinq_siyahisina_daxil_edilib-1316029*

*http://tehsil-press.az/index.php?newsid=41840#newsbase1*

*https://salamnews.org/az/news/read/356267* and ets.

# TURAL ABDULLA: "XARİCDƏ YAŞAMAQ İNSANI HƏYATA HAZIRLAYIR, DÜNYAYA BAXIŞINI DƏYİŞİR"

*2019-cu il iyulun 26-da kaspi.az xəbər portalında Xəzər Universitetinin məzunu, hazırda təhsilini Beynəlxalq münasibətlər ixtisası üzrə EstoniyanınTartu Universitetində davam etdirən Tural Abdulla ilə müsahibə dərc olunmuşdur. Müsahibəni oxucularımıza təqdim edirik.*



*Baltikyanı ölkələri araşdırmağı, öyrənməyi çox sevir. Xaricdə təhsil üçün ilk müraciətində Macarıstanı seçsə də, 2-ci dəfə Estoniyaya gedir. Artıq bir neçə ildir ki, orada yaşayır. Deyir ki, estonlar çox sakit və soyuqqanlı xalqdır. Gözlərinin qarşısında yıxıl öl, veclərinə olmaz. Müsahibimiz Estoniyada Beynəlxalq münasibətlər üzrə təhsil alan Tural Abdulladır. Tural ilk ali təhsilini Azərbaycan Xəzər Universitetində regionşünaslıq fakültəsində Avropaşünaslıq üzrə alıb. Universiteti bitirdikdən sonra 6 ay Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyində təcrübə keçib. Təcrübə müddəti bitdikdən sonra isə biliklərini artırmaq üçün xaricdə təhsil almaq qərarına gəlir. Həmsöhbətim deyir ki, xaricdə təhsil üçün Macarıstan, Avstriya, Estoniyaya müraciət edir və hər üç ölkəyə də qəbul olmaq şansı qazanır: "İlk dəfə 2011-ci ildə bu hər üç universitetdən qəbul cavabı aldım. Amma ailəmin və tanışların təkidi ilə Macarıstanı seçdim. Lakin oradakı təhsil məni qane etmədiyi üçün yarımçıq qoyub, ölkəmizə qayıtdım. Bir ilə yaxın Fövqəladə Hallar Nazirliyində işlədikdən sonra təhsil almaq üçün yenidən Estoniyaya müraciət etdim və qəbul oldum. Qeyd edim ki, təhsilimi Estoniya Xarici işlər Nazirliyi "Eastern Partnership" proqramı çərçivəsində maliyyələşdirirdi. Bu çərçivədə qəbul olduğum Tartu Universitetində təqaüd alan 2 tələbədən biri idim".*

**- Maraqlıdır, nə üçün 2-ci dəfə başqa ölkəni yox, məhz Estoniyanı seçdiniz?**

- Baltikyanı ölkələri öyrənmək mənim üçün daha maraqlı idi. Düşünürdüm ki, balaca bir ölkə necə olub ki, bu qədər inkişaf edib, ciddi nailiyyətlər əldə edə bilib. Həm də azərbaycanlıların seçmədiyi bir ölkəni seçmək istəyirdim. Çünki gənclərimiz xaricdə təhsil üçün daha çox Almaniya, İtaliya, İngiltərəni seçirlər.

**- Necə düşünürsünüz, xaricdə təhsil almaq şərtdirmi?**

- Xaricdə də olmasa, təhsil mütləqdir. Amma xaricdə təhsil almağın üstünlükləri çoxdur. Bir növ dünyaya baxışınızı dəyişir. Mənim üçün xaricdə təhsil almaq, sadəcə yeni biliklər qazanmaq deyil, həmçinin ölkəmizi dünyaya tanıtmaqdır. Harada olursa olsun, başqa ölkədə olduğum zaman özümü Azərbaycanın gənc səfiri kimi görürəm (*gülür*). Bundan başqa, xaricdə təhsil özünü həyata hazırlamaqdır. Çünki burada tək qalırsınız və tanımadığınız bir diyarda özünüzü hərtərəfli təkmilləşdirirsiniz. Öz fikirlərinizi heç kimin təzyiqi olmadan formalaşdırırsınız. Səhv də edə bilərsiniz, sadəcə, əsas odur ki, səhvi təkrarlamayasınız. Yaşadığınız ölkədə hər bir millətdən insanla qarşılaşırsınız və onların mədəniyyətləri ilə tanış olub, diskussiyalar aparırsınız.

**- İki ölkənin təhsilinə bələd olan biri kimi, hansı fərqləri müşahidə etdiniz?**

- Azərbaycanda Xəzər Universitetində təhsil almışam. Bura bizim ən prestijli universitetlərdən sayılır. Amma iki ölkə arasında təhsil fərqləri çoxdur. Düzdür, hər 2 universitetdə təhsil ingilis dilindədir, amma dərs keçmə metodları çox ayrıdır. Azərbaycanda təhsil əsasən mühazirə tipli olur, yəni



dərslər daha çox müəllimlər tərəfindən izah olunur, sonra evə tapşırıq kimi eyni materiallar oxunmağa verilir.Tartu Universitetində isə mövzular əsasən ev tapşırıqları əsasında öyrənilir, növbəti dərsdə bu mövzular müzakirə şəklində müəllimin müşayiəti ilə genişləndirilir. Beləcə, tələbələr arasında diskussiya olur və bilmədiyimiz bir şeyi müzakirə edərək əlavə bilik kimi əldə edirik. Ekskursiyalar təşkil olunur. Məsələn, konfliktologiyayla bağlı Kiprə ekskursiyaya getmişik. Beləcə, həm dərsi, tarixi, həm də hər iki tərəfin (həm yunan, həm türk tərəfinin) maraqlarını öyrənirik. Diplom işinə gəldikdə isə, Azərbaycanda mən diplom işimi 2-3 aya yazıb qurtarmışdım. Burada isə bu qeyri-mümkündür. Kimdən soruşsanız, ən azı 1-2 semestr vaxt lazımdır

**- Xarici ölkəyə gedən tələbələrin mətbəxə öyrəşmək məsələsi də var. Estoniya mətbəxinə alışmaq çətin olmadı ki?**

- Azərbaycan mətbəxindən sonra Eston mətbəxinə öyrəşmək çox çətindir. Estonların, demək olar, öz milli yeməkləri yoxdur. Almansayağı mətbəx desək, daha doğru olar. Əsas yeməkləri: qan sosisi, kartof, bişirilmiş kələm və selyodka. Ətlərdən daha çox donuz əti yeyilir, amma, əlbəttə ki, mən bir azərbaycanlı olaraq donuz ətindən uzaq qaçıram. Evdə yemək bişirməyən mən burada yemək bişirməyi öyrəndim (*gülür*). Bəzən evdə anamdan milli yeməklərin reseptini soruşanda, "indi də aşpazlığa keçəcəksən" deyə, zarafat edir. Amma inanın mənə, bu heç də çətin iş deyil. Məncə, hər kəs yemək bişirməyi, paltar yumağı bilməlidir. Onu da qeyd edim ki, bu yaxınlarda plov bişirməyi öyrəndim. Çox gözəl də alındı, xarici dostlarım bəh-bəh ilə yeyirlər.

**- İlk getdiyiniz dövrlərdə çətinlikləriniz oldumu?**

- Əlbəttə, hər bir yerə getdiyimiz zaman çətinliklər üzə çıxır. Ən əsaslardan biri yemək olsa da, bir digər məsələ Estoniyanın qışı idi. Hava gün ərzində cəmi 4 saat işıqlı olur, qalan vaxt qaranlıq. Buna hələ də öyrəşə bilmirəm. Bundan başqa, havanın temperaturu qışda -25-30 dərəcəyə qədər enir. Başqa öyrəşə bilmədiyim isə yataqxanada otağı bölüşməkdir. Bəzən eyni otaqda qaldığın şəxslə xarakterlər tərs mütənasib ola bilər. O zaman çox çətin olur. Bir də, əlbəttə ki, ailə və gözəl, doğma yurdun həsrəti. Başqa yerdə olduqda insan doğmaları üçün tez darıxır.

**- Maraqlıdır, xərclərinizi necə təmin edirsiniz?**

- Xərclərim təhsil aldığım zaman Estoniyanın Xarici İşlər Nazirliyi tərəfindən ödənilirdi. Təhsil haqqından tam azad idim və aylıq 400 avro pul məvacibi alırdım. Bu isə Tartu kimi balaca şəhərdə yaşamağa bəs edirdi. Sonradan işlə bağlı Tallinə köçdüm.

**- Bir az da yaşadığınız ölkədən danışaq. Estoniyanı bizə təsvir edə bilərsiniz?**

- Estoniya 1.5 milyonluq balaca bir ölkədir. Baltik ölkələrinin hamısının bir yerdə əhalisinin sayı

Bakımıza çatar, ya çatmaz. Bizim kimi postsovet ölkəsi olsa da, bizdən çox qabaqdadır. Əlbəttə, burada ən əsas səbəb Avropa ölkələrinə yaxın olmaları və müstəqillik qazanandan sonra böyük yardımlar almalarıdır. Ölkə informasiya texnologiyaları üzrə çox inkişaf edib. Hər şeyi çox asanlıqla internet vasitəsilə edə bilərsiniz. Hətta, səsverməni belə internetlə bir neçə dəqiqədə etmək olar. Onu da qeyd edim ki, yaşama hüququ almaqla Tallində bütün nəqliyyatlardan pulsuz istifadə edə bilirəm. Ölkədə iki mindən çox balaca ada var. İstifadə etdiyimiz Skype, Taxify (Bolt) bu ölkənin məhsullarıdır. Sevdiyimiz Karlssonun illüstrasiyasını hazırda İsveçdə yaşayan eston İlon Wikland yaradıb. Burada dinə elə də inanmırlar və ölkə əhalisinin hardasa 30% -i ruslardır.

**- Estonların özləri necədir, gəlmələrə münasibətləri necə olur?**

- Estonlar ümumilikdə sakit və soyuq millətdir. Xaricilərə münasibətləri yaxşıdır, sayları az olduqları üçün əhalini çoxaltmaq üçün xaricilərin burada yaşamasına önəm verirlər.

**- Hansısa fərqli bir adət-ənənələri varmı?**

- "Jaanipäev", yəni 'midsummer' gününü qeyd edirlər. Bizim Novruz bayramımızın eynisidir. Bu zaman bizdəki kimi böyük tonqal qalanır və tonqalın ətrafında mahnı oxunulur, rəqs edilir. Yelləncəkdə fırlanmaq, ərlərin qadınları daşıması kimi qəribə milli oyunları da var. Hər 4-5 ildən bir Tallində Estoniya mahnı festivalı təşkil olunur.

**- Təhsiliniz bitdikdən sonra qalmağı düşünürsünüz, ya qayıtmağı?**

- Hazırda 5 illik yaşama hüququ aldığımdan geriyə qayıtmağı düşünmürəm. Əlbəttə, ölkəmi sevirəm, amma, məncə, burada özümü şəxsi və professional cəhətdən daha da inkişaf etdirə bilərəm.



**- Xaricdə təhsil almaq istəyən gənclərə məsləhətiniz?**

- Əgər, doğurdan da, məqsəd ixtisas artımıdırsa, gəlsinlər, amma yeni şəraitə də də hazır olsunlar. Burada bir çox azərbaycanlı görmüşəm ki, gəlir, amma ölkəyə uyğunlaşmaq, inteqrasiya etmək istəmir. Bu da Azərbaycan haqqında neqativ fikirlər yarada bilər. Bəzi tələbələr hətta universitetə qəbul olsunlar deyə, motivasiya məktublarını başqalarına yazdırırlar. Məncə, onlar gəlməsə, daha yaxşıdır (*gülür*). Çünki əgər motivasiya məktubunu çətinliklə yazırlarsa, dərslərdə 5-10 səhifəlik yazıları kimə yazdıracaqlar? Ən əsası, xaricdə yaşamaq sizləri həyata hazırlayacaq. Xaricdə insanlar artıq yetkinlik yaşına çatdıqda ailələrindən ayrılaraq bunu edirlər. Bizdə isə bu, yalnız xaricdə təhsil aldıqda mümkün olur.

**Günel Azadə**

***http://kaspi.az/az/xaricde-zunu-sefir-kimi-gren-azerbaycanli-fotolar/***

## INTERVIEW WITH KHAZAR UNIVERSITY'S ALUMNI ON KASPI.AZ NEWS PORTAL

On July 26, 2019, kaspi.az news portal has published an extensive interview by Khazar University's Alumni Tural Abdulla, who is currently studying at the Tartu University in Estonia, majoring in International Relations, entitled "Azerbaijani who considers himself as an ambassador abroad". The interview can be read through the following link:

http://kaspi.az/az/xaricde-zunu-sefir-kimi-gren-azerbaycanli-fotolar/



# TÜRKİYƏ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ XƏZƏR UNİVERSİTETİNİN BİRGƏ LAYİHƏSİ: "İKİNCİ BEYNƏLXALQ UNUDULAN SÖZLƏR YAŞADILSIN – DƏDƏ QORQUDUN İZİNDƏ / SÖZÜNDƏ"

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi ilə Xəzər Universitetinin "İkinci Beynəlxalq Unudulan Sözlər Yaşadılsın – Dədə Qorqudun İzində / Sözündə" adlı birgə layihəsi çərçivəsində iyulun 26-da Gəncə Dövlət Universitetində növbəti tədbir – Beynəlxalq Gənclik Simpoziumu keçirildi.

Qeyd edək ki, AMEA Folklor İnstitutu, Bayburt Bələdiyyəsi, Türkmənistan Elmlər Akademiyası, Qırğızıstanın Manas Universiteti, Qazaxıstanın Əhməd Yəsəvi Universiteti, Özbəkistan Milli Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutu kimi nüfuzlu elm və təhsil müəssisələri layihəyə dəstək verirlər. Layihənin məqsədi Dədə Qorqud dastanlarında adı çəkilən şəhər, çay, dağ və s. yerləri gənc nəslə tanıtmaq, onlara vətənpərvərlik və millilik ruhu aşılamaqdır.

Layihədə Türkiyə və Azərbaycanın elm və təhsil müəssisələrinin alim və mütəxəssisləri, orta məktəb müəllimləri və şagirdləri iştirak edirlər.

Layihə iştirakçıları Türkiyənin Ankara, Trabzon və Bayburt (Bayburtda Xəzər Universitetini Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova təmsil etmişdi), Gürcüstanın Batumi və Tbilisi şəhərlərində tədbirlər keçirərək, Gəncəyə gəlmişdilər.

Gəncə Dövlət Universitetində tədbirin açılışı Azərbaycan və Türkiyə respublikalarının dövlət himnlərinin ifası ilə başlandı. Universitetin İnnovasiyalar departamentinin direktoru Dr. Vasif Həsənov iştirakçıları salamlayandan sonra Tarix-coğrafiya fakültəsinin Azərbaycan tarixi kafedrasının dosenti Cavid Bağırzadə çıxış edərək, tədbirə ev sahibliyi etməkdən məmnunluq duyduqlarını nəzərə çatdırdı.

*(Ardı səh.32-də)*







# THE JOINT PROJECT OF THE MINISTRY OF CULTURE AND TOURISM AND KHAZAR UNIVERSITY: "THE SECOND INTERNATIONAL LET THE FORGOTTEN WORDS BE KEPT ALIVE/FOLLOWING DEDE GORGUD'S TRAIL/WORDS"

On July 26, the subsequent event within the framework of the "The Second International Let the Forgotten Words be Kept Alive/ Following Dede Gorgud's Trail / Words" Project - the International Youth Symposium was held at the Ganja State University, being a part of the joint project of the Ministry of Culture and Tourism and Khazar University.

It is worth mentioning that the project is supported by the highly reputable scientific and educational institutions such as the Institute of Folklore of ANAS, Bayburt Municipality, Turkmenistan Academy of Sciences, Manas University in Kyrgyzstan, Ahmed Yesevi University of Kazakhstan, Institute of Language and Literature of the National Academy of Sciences of Uzbekistan. The purpose of the Project is to acquaint the younger generation with the cities, rivers, mountains etc., mentioned in Dede Gorgud's sagas, instilling feelings of patriotism and nationalism.

The Project involves scientists and specialists, teachers and students of scientific and educational institutions of Turkey and Azerbaijan.

After holding the events in Ankara, Trabzon and Bayburt (At Bayburt, Khazar University was represented by Associate Professor Elza Samedova, Dean of the Faculty of Humanities, Education and Social Sciences) Turkey, Batumi and Tbilisi Georgia, the Project participants arrived to Ganja.

Opening of the event at Ganja State University began with the performance of national anthems of Azerbaijan and Turkey. After Dr. Vasif Hasanov, Director of the University's Innovation Department, welcomed the participants, Javid Bagirzade, Associate Professor of the Department of History of Azerbaijan, delivered speech expressing pleasure at hosting the event.

*(To be continued page 33)*





**Layihənin Türkiyə üzrə elmi rəhbəri, Ankara Universitetinin professoru Üçler Bulduk, Xəzər Universiteti "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev, simpoziumun qonağı – Koreyanın Seul Dövlət Universitetinin Türkoloji Araşdırmalar Mərkəzinin direktoru Dr. Eunkyung Oh, Yasemin Karakaya Elm və Sənət Mərkəzinin əməkdaşı Selma Köseoğlu, AMEA Folklor İnstitutunun Xarici Əlaqələr Bölməsinin müdiri Əli Şamil və Akdeniz Universiteti Gözəl sənətlər fakültəsinin əməkdaşı Mehmet Sağ, Azərbaycan Britaniya Kollecinin müəllimi Xədicə Babayeva, Sumqayıt Şəhər İsmət Qayıbov adına 1nömrəli tam orta məkrəbin müəllimi Aidə Ələkbərova və İsmayıllı rayonunun Ceyhun Həsənov adına Kürdmaşı kənd tam orta məktəbinin müəllimləri Aytən Kazımlı və Tünzalə İsmayılova açılış mərasimində çıxış edərək, möhtəşəm layihənin həm ümumilikdə, həm də müxtəlif istiqamətlərinin mühüm əhəmiyyətindən bəhs etdilər.**

**Fasilədən sonra simpozium Əli Şamil və Üçler Buldukun moderatorluğu ilə iki bölmədə işini davam etdirdi. Türkiyə universitetlərinin tələbələri - Serkan Karagöz, İsmail Sefa Urhan, Emine Temel və digərləri, Xəzər Universitetinin tələbəri - Aydan Quliyeva (birinci kurs, tarix ixtisası, "Dədə Qorqud sovet dönəmində"), Fatma Əliyeva (birinci kurs, tarix ixtisası, "Dədə Qorqud dastanlarındakı atalar sözlərinin qarşılığı") və Sabir Hüseynov (üçüncü kurs, dizayn ixtisası, "Dədə Qorqudu rəsm edərkən") Dədə Qorqud dastanları mövzusundakı tədqiqatlarını təqdim etdilər.**

***(Ardı səh.34-də)***





Üçler Bulduk, Project's Scientific Supervisor on Turkey, Professor of Ankara University, Alirza Balayev, Deputy Editor-in-Chief of Khazar University's "Khazar Review" Journal, honored journalist, and following guests of the symposium – Dr. Eunkyung Oh, Director of the Center for Turkish Studies at Seoul State University, Selma Köseoglu, employee of the Yasemin Karakaya Science and Art Center, Ali Shamil, Head of Foreign Relations Department of the Institute of Folklore of ANAS, and Mehmet Sagh, Professor of Fine Arts at Akdeniz University, Khadija Babayeva, teacher of the British College of Azerbaijan, Aida Alakbarova, teacher of secondary school No. 1 in Sumgayit named after Ismet Kayibov, and Ayten Kazimli and Tunzala Abdullayeva, teachers of Kurdmashi village secondary school in Ismayilli region, delivered speeches at the opening ceremony, emphasizing the importance of the project both in general and in various aspects.

After the break, the symposium continued in two sections, moderated by Ali Shamil and Üçler Bulduk. Turkish university students - Serkan Karagöz, Ismail Sefa Urhan, Emine Temel and others, Khazar University students - Aydan Guliyeva (1st year student majoring in history, "Dede Gorgud in the Soviet era") Fatma Aliyeva (1st year student majoring in history, "Equivalency of the proverbs in Dede Gorgud's sagas") and Sabir Huseynov (3rd year student, majoring in design, "Dede Gorgud while Portraying") presented their research works on Deded Gorgud epics.

*(To be continued page 35)*











Bağlanış mərasimində Üçler Bulduk simpoziumun işini yekunlaşdırdı, Gəncə Dövlət Universitetinə təşəkkürünü bildirdi.

İyulun 27-də simpozium iştirakçıları Ağstafa və Qazax rayonlarına səfər etdilər. Ağstafa Rayon Mədəniyyət Mərkəzinin önündə qonaqlar səmimi qarşılandılar. Rayon ziyalılarının və mədəniyyət işçilərinin toplaşdığı Mədəniyyət mərkəzində rəsmi və bədii hissədən ibarət geniş tədbir oldu. Uçler Bulduk, layihənin icraçı rəhbəri, Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Aynur Qəzənfərqızı çıxış edərək, layihə haqqında məlumat verdilər. Mehmet Sağ Qafqaz azərbaycanlılarına həsr etdiyi şeirini oxudu. Bədii hissədə Ağstafa, Qazax və Tovuzun tanınmış saz-söz ustalarının geniş proqramlı konserti təqdim olundu. Sonda Ağstafa Regional Mədəniyyət İdarəsinin rəis müavini Gülgün Kərimov və Uçler Bulduk çıxış etdilər, hədiyyələr təqdim olundu.

Tədbir Əhməd Cavadın və Üzeyir Hacıbəylinin yadigarı olan "Çırpınırdı Qaradəniz" mahnısının kollektiv ifası ilə başa çatdı.

Layihə iştirakçıları Ağstafa şəhərindəki Miniatür Azərbaycan Parkı ilə tanış oldular.

Sonra layihə iştirakçıları Qazax rayonuna gedərək, "Dədə Qorqud" Abidə Kompleksində, Tarix-Diyarşünaslıq Muzeyində, Dövlət Rəsm Qalereyasında və Mütəfəkkirlər parkında oldular.

Layihə iştirakçıları Bakıya döndükdən sonra Qazaxıstana yola düşdülər. Oradan isə Özbəkistan və Qırğızıstana səfər edərək, ölkə paytaxtlarından əlavə "Dədə Qorqud"la bağlı digər şəhərlərdə də oldular. Türkiyədən başlanan layihə proqramı Türkiyədə başa çatdı.

Tədbir haqqında ölkə mediası xəbər yaymışdır:

*http://azpress.az/index.php?lang=az&sectionid=news&id=90740*

*http://xalqqazeti.com/az/news/27563*




At the closing ceremony, Üçler Bulduk announced the completion of the symposium's work and expressed gratitude to Ganja State University.

Layihə iştirakçıları Bakıya döndükdən sonra Qazaxıstana yola düşdülər. Oradan isə onları Özbəkistan, Tükmənistan və Qırğızıstana səfərlər gözləyir. Türkiyədən başlanan layihə proqramı Türkiyədə başa çatacaq.

On July 27, symposium participants visited Agstafa and Gazakh regions. The guests were cordially welcomed in front of the Aghstafa Cultural Center. The cultural center, which was attended by intellectuals and cultural workers of the region, was a large-scale event consisting of official and artistic sections. Uçler Bulduk, the Project's Executive Director, Ainur Kazanfargizi, instructor at the Department of Languages and Literature of Khazar University, provided information on the project. Mehmet Sağ read his poem dedicated to the Caucasian Azerbaijanis. During the artistic section of the event, a concert program of well-known musicians of Agstafa, Gazakh and Tovuz, was presented. At the end of the event, Gulgun Karimov, Deputy Head of the Aghstafa Regional Culture Department, and Uçler Bulduk delivered speeches and gifts were presented.

The event was completed with a collective performance of the song "Çırpınırdı Qaradeniz" (The Black Sea was Raging) by Ahmad Javad and Uzeyir Hachibeyli.

Project participants got acquainted with Miniature Azerbaijan Park in Agstafa.

Further on, project participants proceeding with their trip to Gazakh district, visited the "Dede Gorgud" Memorial Complex, the Museum of History and Ethnography, the State Art Gallery and the Park of Philosophers.

After returning to Baku, the project participants set off on a journey to Kazakhstan. From there, they visited Uzbekistan, Kyrgyzstan and alongside with its capital cities they visited other cities related to Dede Gorgud. The project which started in Turkey was completed in Turkey.

Country's media reported on the event:

http://azpress.az/index.php?lang=az&sectionid=news&id=90740

http://xalqqazeti.com/az/news/27563



"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu

# ƏDƏBİYYAT İNSTİTUTU İLƏ AVRASİYA TÜRK ARAŞDIRMALARI İNSTİTUTU ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Avrasiya Türk Araşdırmaları İnstitutu arasında "Akademik və tədqiqat əməkdaşlığı sahəsində" anlaşma memorandumu imzalanıb.

Tədbirdə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Koreya ilə Azərbaycan arasındakı münasibətin uğurla inkişaf etdiyini bildirib. Bu cür əməkdaşlıq müqavilələrinin qarşılıqlı münasibətlərin daha yaxşı inkişafına töhfə verəcəyini vurğulayıb.

Akademik qeyd edib ki, mən Naxçıvan Dövlət Universitetində işləyərkən Koreyadan tələbələrimiz vardı, koreya dili kursu da açmışdıq. Sizin tərəfinizdən Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasını tərcümə edib Koreyada yayımlamağınız çox yaxşı haldır. Həmçinin bildirib ki, Ədəbiyyat İnstitutunda şərq ədəbiyyatı hərtərəfli öyrənilir. Professor Bədirxan Əhmədlinin rəhbərlik etdiyi Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsi bu işdə xüsusilə fəaldır. İndiyə kimi, Çin, Hindistan, Pakistan kimi ölkələrlə əməkdaşlıq müqavilələri imzalanıb. Koreya üzrə kordinator isə həmin şöbənin əməkdaşı Leyla Həsənzadədir.

Sonra Seuldakı Dongduk Qadınlar Universitetinin professoru, Avrasiya Türk Araşdırmaları İnstitutunun direktoru, YUNESKO-nun Orta Asiya ölkələri üzrə təmsilçisi Eunkyung Oh da Ədəbiyyat İnstitutu ilə əməkdaşlığın uğurlu töhfələr verəcəyinə ümid etdiyini bildirib. Xanım Eunkyung Oh Qarabağ haqqında kitab yazdığını bildirib. Həmçinin qeyd edib ki, Azərbaycan ədəbiyyatı koreya dilinə kütləvi şəkildə çevrilməyib. Koreyada türkoloji bölümdə doxsana yaxın tələbə oxuyur. Bu anlaşmadan sonra əməkdaşlığın daha da genişlənəcəyini diqqətə çatdırıb.

Eyni zamanda Ədəbiyyat İnstitutunun elmi katibi Mehman Həsənli və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Xanım Zairova da imzalanma

## "QOŞA QANAD" ƏDƏBİ ALMANAXI İŞIQ ÜZÜ GÖRÜB




Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqı və Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Qoşa qanad" ədəbi almanaxının üçüncü kitabı nəşr edilib. Kitaba Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyatşünaslıq plyus" Yaradıcılıq Birliyi tərəfindən rəy verilib.

Kitabın ideya və ön sözünün müəllifi Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, redaktoru isə hüquq üzrə elmlər doktoru, professor Habil Qurbanovdur. Ədəbi almanaxın tərtibçi-redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Zəkulla Bayramlı, nəşriyyat redaktoru isə Mətanət Novruzovadır.

Ədəbi almanax akademik İsa Həbibbəylinin "Akademik ədəbiyyat məktəbi" adlı yazısı ilə açılır. İki hissəli, 352 səhifədən ibarət olan ədəbi almanax "AFPoliqrAF" mətbəəsində çap olunub. Kitabda AMEA-nın müxtəlif elmi-tədqiqat institutlarında çalışan əməkdaşların bədii əsərləri, xüsusən də şeir və hekayələri toplanıb.

## "MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ" JURNALININ NÖVBƏTİ SAYI ÇAP OLUNUB

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müqayisəli ədəbiyyatşünaslıq" Beynəlxalq elmi jurnalının 2019-cu ildə birinci sayı nəşr olunub. Xatırladaq ki, jurnal uzun müddət "Ədəbi əlaqələr" adı ilə fəaliyyət göstərib. AMEA Rəyasət Heyətinin jurnalların təkmilləşdirilməsi haqqında qərarından sonra komparativistika istiqmətində ixtisaslaşan jurnalın adı dəyişdirilərək "Müqayisəli ədəbiyyatşünaslıq" adlandırılıb. Çingiz Aytmatovun 90 illiyinə həsr olunmuş xüsusi buraxılışı 2018-ci ildə bu adla çap olunub.




"Müqayisəli ədəbiyyatşünaslıq" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilib və Beynəlxalq ISSN kodu alınıb. Jurnalın clsjournal.literature.az elektron variantı yaradılıb.

AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat institutunun direktoru akademik İsa Həbibbəylinin baş redaktorluğu ilə çap olunan jurnalın bu sayında Dünya ədəbiyyatı və Türk xalqları ədəbiyyatı ilə qarşılıqlı müqayisəli təhlillərin yer aldığı elmi məqalələr işıq üzü görüb.

"Müqayisəli ədəbiyyatşünaslıq" Beynəlxalq elmi jurnalının baş redaktoru akademik İsa Həbibbəylidir. Jurnalın məsul katibi filologiya üzrə fəlsəfə doktoru Mehman Həsənli, məsul redaktoru isə Maral Poladovadır.

Jurnalın redaksiya heyətinə Azərbaycan, Türkiyə, Rusiya, Çin, Cənubi Koreya, Özbəkistan, Bolqarıstan, Qırğızıstan, Macarıstan, Çexiya, Başqırdıstan, Tatarıstan, Qazaxıstan, Türkmənistan, Ukrayna və Polşanın alimləri daxildir.

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, İctimaiyyətlə əlaqələr şöbəsi**

# ŞƏHLA QƏMƏRİ: "HƏYAT RİSKLƏRİ SEVİR"



***2019-cu il iyulun 26-da Kaspi.az xəbər portalı "Xəzər"in məzunu, Macarıstanda İnsan resurslarının idarə olunması ixtisası üzrə magistr pilləsini bitirib, hazırda orada işləyən Şəhla Qəməri ilə müsahibə dərc etmişdir. Müsahibəni oxucularımıza təqdim edirik.***

*Məqsədli və güclüdür. Elə buna görə də, 4 il oxuyub, işlədikdən sonra ixtisasını dəyişmək üçün xaricə yollanıb. Deyir ki, qərib ölkədə yaşayan insanlar daha çox ölkəsinin yeməklərinin həsrətini çəkirlər. Həmsöhbətimiz isə Azərbaycan dili üçün darıxır. Düşünür ki, başqa dili nə qədər mükəmməl bilsən də, özünü ifadə etməyi bacarsan da, problemini öz dilində danışıb həll etmək qədər yaxşı bir şey yoxdur. Müsahibimiz xaricdə təhsil alan həmvətənimiz Şəhla Qəməridir. Şəhla Bakıda anadan olub. Xəzər Universitetində tərcümə fakültəsini bitirib: "Tərcümə fakültəsində oxumaq arzum idi. Hələ bakalavr dövründə təhsilimi xaricdə davam etmək istəyirdim. Universiteti bitirdikdən sonra Bakıda ingilis dili müəllimi işlədim. Lakin işləyərkən anladım ki, bu, mənim sahəm deyil və məni xoşbəxt etmir. Daha sonra işimdən ayrıldım və istiqamətimi dəyişdim. Hazırda Macarıstanda İnsan resurslarının idarə olunması fakültəsində təhsil alıram".*

**- Komfort zonadan çıxıb, xaricə getmək necə hissdir?**

- Xəzər Universitetində oxuyarkən xaricdə təhsilimi davam etdirməyi qarşıma məqsəd qoymuşdum. Bu da mənim bütün planlarımı dəyişdi. Diplomumu qatlayıb kənara qoydum və tam fərqli ixtisas arxasınca yollandım. Əlbəttə, bu mənim üçün böyük qərar idi. Çünki universiteti bitirmişdim, diplomum var idi və işləyirdim. Amma düşündüm ki, müəllimlikdə perspektivlik yoxdur. Bu gün də müəllimsən, 30 il sonra da. Monoton olmayan iş istədim və dəyişdim.

**- Amma işini sevməyən insanların əksəriyyəti karyerasını dəyişməyə risk etmir...**

- İnsanlar daha çox maddiyyata önəm verir. Sevdiyi işdə deyil, daha çox qazanc gətirən sahədə işləmək istəyirlər. Yəni işini sevib-sevməmək onlar üçün önəmli deyil. Bir müddət bu davam edə bilər, amma haradasa dayanır. Artıq səni xoşbəxt etməyən işdə işləmək istəmirsən. Bu zaman da insanlar işini dəyişməkdən qorxurlar. Həyat riskləri sevir. Biz xoşbəxt olmaq üçün çalışmalıyıq. Çünki bir insan özünü xoşbəxt hiss edirsə, işdə də kreativ olur. Məsələn, müəllimədir, amma uşaqları sevmir. Yaxud ustadır, işindən zövq almır. O qədər belə hallarla rastlaşmışıq ki,.. Belə halda o nə yaxşı müəllim, nə də yaxşı usta ola bilər.

**- Bəs, nə üçün məhz Macarıstan və bu ölkədə ilk dəfə sizi təəccübləndirən nə oldu?**

- Əslində. başqa planlarım var idi. İtaliya, Kanada, ya da İngiltərədə oxumaq istəyirdim. Hətta İngiltərə universitetlərindən birinə qəbul da olundum. Lakin magistr təhsili almaq üçün ixtisasım bakalavrla eyni olmalı idi. Bu səbəbdən İngiltərə alınmadı. Macarıstan isə həm büdcəmə uyğun idi, həm universitet çox yaxşı idi, həm də istədiyim təhsili ala biləcəkdim. Beləcə, Macarıstana gəldim. Mən heç vaxt tək səyahət etməmişdim. Təyyarədən endikdən sonra gördüm ki, heç kimi tanımıram. Dilləri, mədəniyyətləri, insanları fərqli idi. Özüm də təəccüblü idim. O qədər qorxdum ki... Hətta otel otağında tək oturub ağlayırdım ki, mən burada nə edəcəyəm?

**- Xaricə tək yollanmağınıza ailənizin reaksiyası necə oldu?**

- Valideynlərimi buna razı salmaq çox çətin

mərhələ idi. Onlar bəzən hələ də deyir ki, sənin burada hər şeyin var idi, nə üçün əcnəbi ölkəyə getdin? Hər dəfə irad bildirirlər ki, insan necə bir anda hər şeyi silib, həyata sıfırdan başlaya bilər. Anam əslində məni dəstəkləyirdi. O həmişə yanımda idi. Amma atam çox mühafizəkardır. Uzun danışıqlardan sonra bu mümkün oldu. Hətta xaricə getmək üçün ağladığım vaxtlar da olub. Amma indi atam xaricdə qalıb işləməyimi dəstəkləyir. Burada məni ilk dəfə təəccübləndirən ictimai nəqliyyat sektoru idi. Burada heç kimin biletini yoxlamırlar. Fikirləşdim ki, insanlara necə inanırlar? Hamının da bileti olurdu, biletsiz keçən, sui-istifadə edən yalnız xaricilər idi.

**- Sizcə, hər kəs xaricdə təhsil ala bilər? Çünki bəzi insanlar bunun çox çətin olduğunu düşünürlər?**

- Mən düşünürəm ki, insan hər şeyə qadirdir. Bakıda hər şeyi ailəm etdiyi üçün çətinlik görməmişdim. Burada tam başqa mühitdə, sosial həyatına sıfırdan başlayırsan. Sənin dostun, rəfiqən yoxdur. Yenidən doğulmuş kimi olursan. Düzdür, bəziləri dostları ilə gəlir, onlar 1:0 öndə başlayırlar. Amma mənim üçün hər şey sıfırdan başlandı. Dil barədə problem olur. Məsləhət görərdim ki, mütləq dilinizi inkişaf etdirin. Təhsil almağa gələnlər məhz dil baryerinə görə darıxırlar. İnsanı ən çox incidən məsələ isə köçməkdir. Tək köçürsən. Bütün həyatını özün tək yaşayırsan. Düzdür, insanın böyüməsi, yetkinləşməsi üçün bu çox vacibdir. Amma bir o qədər də çətindir. Mümkünsüz heç nə yoxdur. İnsanın məqsədi olmalıdır. Mənəvi olaraq güclü olsan, bütün çətinliklərin öhdəsindən gələ bilərsən. İnsan istəsə, hər şey mümkündür.

**- Xaricdə yaşayan azərbaycanlı gənc ölkəsi ilə bağlı nəyin həsrətini çəkir?**

- İlk növbədə insan ailəsi üçün darıxır. Bundan əlavə, burada uşaqlar Bakı, sahil, dəniz, yeməklər üçün darıxırlar. Yeməklərin həsrətini çəkənlər çoxdur. Hər dəfə kim Bakıya gedirsə, qayıdanda dolma bişirtdirib gətirməsini istəyirlər. Mən isə Azərbaycan dili üçün çox darıxıram. Düzdür, burada türklər var, onlarla danışırıq, amma yenə də onun yerini vermir. Sadəcə, öz dilində söhbət etmək istəyirsən. Çünki başqa dili nə qədər yaxşı bilsən də, özünü nə qədər yaxşı ifadə etsən də, öz problemini öz dilində danışmağın qədər yaxşı bir şey yoxdur. İnsan öz dili üçün çox darıxır. Yolda azərbaycanlı görəndə çevrilib baxıram və salam verirəm. Mən Azərbaycanda insana olan münasibət üçün də darıxıram. Ofisdə, oteldə, mağazada - harada olursan-ol, bizim insanlar kömək etməyə hazırdır. Burada o istiliyi ala bilmirsən.

**- Macarları necə xarakterizə edərdiniz?**

- Macarların ən xarakteristik xüsusiyyətləri budur ki, çox sakitdirlər. Ümumiyyətlə, ölkə çox sakitdir. Öz mədəniyyətlərinə bağlıdırlar. Heç kimin problemlərinə qarışmırlar. Sadəcə, səssiz öz həyatlarını yaşayırlar. Bərkdən danışmaz, bərkdən gülməzlər. İşlərində çox ciddidirlər, amma iş saatları azdır. Saat 5-də hər yer bağlanır. Hətta marketlər saat 7-dən sonra işləmir, bazar günü isə 5-ə qədər işləyirlər. İş saatından sonra işləməyə meyilli deyillər. Axı bizdə daha çox işləyib, daha çox qazanmaq məsələsi var. Onlar isə deyir ki, az qazansam da olar, əsas odur ki, yorulmayım. Çox vaxt deyirlər ki, Avropada ailə anlayışı yoxdur. Macarlarda ailə anlayışı bizimki qədər güclüdür. Ailə onlar üçün çox vacibdir.

**- Gələcək planlarınız necədir?**

- Hazırda burada işə başlamışam. Bir müddət karyerama davam edib, Kanadaya köçməyi planlaşdırıram.

**Aygün Əziz**

***http://kaspi.az/az/heyat-riskleri-sevir-fotolar***

# INTERVIEW WITH KHAZAR UNIVERSITY'S ALUMNUS ON KASPI.AZ NEWS PORTAL

On July 26, 2019, Khazar University's Alumnus, who further obtained Master's degree in Human Resource Management in Hungary, published an extensive interview with Shahla Qamari, who is currently working at the Kaspi.az news portal. Interview with author Aygun Aziz, was also spread by other news websites on August 14:

***http://kaspi.az/az/heyat-riskleri-sevir-fotolar***
***http://kaspi.az/az/heyat-riskleri-sevir-fotolar***
***https://demokratikmusavat.com/article/az/168460***

# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ TBİLİSİ VƏ OSLO ŞƏHƏRLƏRİNDƏ 2 HƏFTƏLİK YAY MƏKTƏBİNDƏ

# KHAZAR UNIVERSITY STUDENTS IN 2-WEEK SUMMER SCHOOL IN TBILISI & OSLO

İyulun 14-28-də Xəzər Universitetinin Regionşünaslıq (Avropa) ixtisası üzrə magistratura təhsili alan 3 tələbəsi - Aygün Əliyeva, Asiman Qocayev, Cəfər Allahverdiyev və Biznesin idarə edilməsi üzrə magistratura təhsili alan tələbəsi Nərmin Əliyeva Tbilisi və Oslo şəhərlərində yay məktəbində təlim keçmişlər. Tələbələrə yay məktəbi ərzində İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov və Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev rəhbərlik etmişlər.

Yay məktəbi "Cənubi Qafqaz və Norveçdə akademik mühitdə mədəniyyətlərarası münasibətlər" layihəsi çərçivəsində təşkil edilmişdi və Oslo Metropolitan Universiteti, Xəzər Universiteti və Tbilisi Dövlət Universitetindən olan tələbələr üçün nəzərdə tutulmuşdu.

Yay məktəbinin məqsədi tərəfdaş universitetlər arasında sıx əməkdaşlıq qurmaq, mədəniyyətlərarası dialoqa töhfə vermək və bu sahədə tələbələrin bilik və bacarıqlarını inkişaf etdirmək olmuşdur.

Yay məktəbinin birinci həftəsi Tbilisi Dövlət Universitetində təşkil olunmuşdur və aşağıda qeyd edilən multidissiplinar mövzuları əhatə etmişdir: "Mədəniyyətlərarası kommunikasiyanın əsas anlayışları - sosial psixoloji perspektivlər", "Mədəniyyətlərarası kommunikasiyanın əsas anlayışları - antropoloji perspektivdən", "Streotiplər", "İctimai münasibətlər və mətbuat", "Mədəniyyətlərarası kommunikasiya - eşitmə qüsuru olan insanlarla münasibət perspektivindən" və "Mədəniyyətlərarası kommunikasiyada tərcümənin rolu". Əlavə olaraq, tələbələr Beynəlxalq Miqrasiya Təşkilatının Gürcüstan ofisində olmuş və Cənubi Qafqazda olan miqrasiya prosesləri ilə bağlı ətraflı məlumat əldə etmişlər.

Yay məktəbinin 2-ci həftəsi Oslo Metropolitan Universitetində təşkil edilmişdir və aşağıda qeyd edilən mövzuları əhatə etmişdir: "Niyə norveçlilər bu cürdürlər?", "Mətbuat və qlobal mədəniyyət", "Sələfilik - Norveçdə yeni dini gənclik hərəkatı kimi", "Mədəniyyətlərarası kommunikasiyanın əsas anlayışları - sosial psixoloji perspektivlər", "Qaraçı xalqlarının təhsili" və "Tolerantlıq və hörmət". Bundan başqa, tələbələr Osloda Refstad İmmiqrasiya Mərkəzində olmuşlar. Miqrasiya mərkəzinə səfərin əsas məqsədi Norveçin miqrasiya siyasəti və sığınacaq proseduru ilə tanışlıq olmuşdur.

Səfər müddətində tələbələr sığınacaq axtaran şəxslərlə söhbət etmək, eləcə də onların yaşadıqları yeri görmək və onlarla birlikdə nahar etmək imkanı əldə etmişlər.

On July 14-28, students of Khazar University – Aygun Aliyeva, Asiman Gojayev, Jafar Allahverdiyev majoring in European Studies and Narmin Aliyeva majoring in MBA participated in a training hosted by Summer School of Tbilisi and Oslo. During the Summer School Program the students were guided by Dr. Jeyhun Mammadov, Dean of the School of Economics and Management and Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department.

The Summer School was organized within the "Intercultural Communication in Academic Settings in South Caucasus and Norway" project and hosted the participants from Oslo Metropolitan University, Khazar University, and Tbilisi State University.

The Summer school aimed to develop strong ties among partner universities in terms of enhancing intercultural communication skills and competence of students, contributing to internationalization and establishing research collaboration.

The first week of the Summer School was organized at Tbilisi State University and covered the following multidisciplinary topics: "Basic concepts of intercultural communication and competence – social psychological perspectives", "Basic concepts of intercultural communication and competence – anthropological perspectives", "Stereotypes", "Public attitudes and the media", "Communication between deaf and hearing people as intercultural communication", "Interpreting as intercultural communication". Moreover, students had a field trip to International Organization for Migration in Georgia and got acquainted with the current migration trends in the South Caucasus region.

The second week of the Summer School was hosted by Oslo Metropolitan University and touched upon the following topics: "Why are Norwegians the way they are?", "Media and global culture", "Salafism, a new religious youth movement in Norway", "Basic concepts of intercultural communication and competence – social psychological perspectives", "Roma and educational policy", and "Tolerance and respect". Furthermore, the students visited the Refstad Immigration Center in Oslo. The field trip was aimed at acquainting the students with the Norwegian immigration and asylum procedure.

The visit has also provided an opportunity for our students to talk with asylum seekers, to see the facilities where they are settled, and to have lunch with them.








# PROFESSOR HAMLET İSAXANLININ ELMİ REDAKTORLUĞU İLƏ "AZƏRBAYCAN RİYAZİYYATÇILARI" ADLI ENSİKLOPEDİK SORAQ KİTABI NƏŞR OLUNUB

Kitabın müəllifi AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanovdur. Kitabının elmi redaktoru Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır.

"Elm və təhsil" nəşriyyatında çap olunan kitabda qədim dövrdən indiyədək Azərbaycanda riyaziyyat elminin inkişafına mühüm töhfələr vermiş alimlər barədə xronoloji ardıcıllıqla məlumat verilir. Kitab riyaziyyatın tarixi ilə məşğul olan mütəxəssislər, müəllim və tələbələr, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

"Azərbaycan müəllimi" qəzeti 2019-cu il 5 sentyabr tarixli nömrəsində kitabın çapdan çıxması haqqında xəbər dərc etmişdir:

*https://muallim.edu.az/news.php?id=7223*

# ENCYCLOPEDIC QUESTIONNAIRE BOOK ENTITLED "AZERBAIJANI MATHEMATICIANS" PUBLISHED UNDER SCIENTIFIC EDITORSHIP OF PROFESSOR HAMLET ISAKHANLI

The author of the book is Misir Mardanov, Director of the Institute of Mathematics and Mechanics of ANAS, corresponding member of ANAS. The Scientific Editor of the book is Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

The book, published by the "Elm & Tehsil" publishing house, provides chronological information about scientists, who have made significant contributions to the development of mathematical science in Azerbaijan from olden times until present. The book is intended for a wide range of readers, including professionals, teachers and students dealing with the history of mathematics.

The "Azərbaycan müəllimi" Newspaper published news on the book release on September 5, 2019:

*https://muallim.edu.az/news.php?id=7223*

# TƏHSİL EKSPERTİ: XƏZƏR UNİVERSİTETİ ABİTURİYENTLƏRİN DAHA ÇOX ÜSTÜNLÜK VERDİYİ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏN BİRİDİR

# EDUCATION EXPERT: KHAZAR UNIVERSITY IS ONE OF MOST PREFERRED HIGHER EDUCATION INSTITUTIONS

2019-cu il avqustun 7-də *ayna.az* və *cenubxeberleri.com* saytları təhsil eksperti Elçin Əfendinin qəbul imtahanlarının nəticələri ilə əlaqədar müsahibəsini dərc etmişlər. Təhsil eksperti müsahibəsində Xəzər Universitetinin abituriyentlərin daha çox üstünlük verdiyi ali təhsil müəssisələrindən biri olduğunu vurğulamışdır.

Geniş məlumat aşağıdakı linklərdə:

*http://ayna.az/news/1794*

*http://cenubxeberleri.com/1895-bu-ali-thsil-mssislrin-tlb-axn-kskin-kild-azalr-syah.html*

On August 7, *ayna.az* and *cenubxeberleri.com* websites have published an interview with Elchin Efendi, the expert of education, regarding the results of the entrance exams. In an interview, the education expert said that Khazar University is one of the universities that applicants give considerable preference to.

More detailed information can be found at the following links:

*http://ayna.az/news/1794*

*http://cenubxeberleri.com/1895-bu-ali-thsil-mssislrin-tlb-axn-kskin-kild-azalr-syah.html*

# "XƏZƏR"İN BİR QRUP İŞÇİSİNƏ QURBAN PAYI VERİLDİ

# GROUP OF KHAZAR UNIVERSITY'S EMPLOYEES GIVEN QURBANI SHARES

Avqustun 14-də Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Nizami Rayon Şöbəsi tərəfindən Xəzər Universitetinə ayrılmış qurban paylarını universitetin İctimai əlaqələr və media üzrə direktoru, universitet həmkarlar təşkilatının sədri Ələvsət Əmirbəyli bir qrup işçiyə təqdim etdi və şöbənin əməkdaşlarına minnətdarlığını bildirdi.

On August 14, the Qurbani shares (Sacrificial Shares) from the Republican Committee of the Trade Union of State Organization and Public Service Workers of the Nizami District Department was presented to group of Khazar University's Employees by Alovsat Amirbayli, the Director for Public Relations and Media and Head of the University's Trade union organization, who expressed gratitude to the Department's staff.



# PROFESSOR HAMLET İSAXANLI KOREYA SƏFİRİNİ QƏBUL ETDİ

# PROFESSOR ISAKHANLI RECEIVED KOREAN AMBASSADOR

Avqustun 17-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Koreya Respublikasının Azərbaycandakı səfiri cənab Kim Tong Op və Azərbaycanda səfərdə olan koreyalı türkoloq professor xanım Eunkyung Oh-u qəbul etdi. Görüş zamanı Koreya və Azərbaycan, Koreya universitetləri və Xəzər Universiteti arasında elmi-tədqiqat əlaqələrinin gücləndirilməsi kimi məsələlər müzakirə olundu.

Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova və universitetin Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva iştirak edirdilər.

On August 17, 2019, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, received H. E. Kim Tong Op, Ambassador of the Republic of Korea to Azerbaijan, and Professor Eunkyung Oh, Korean expert in Turkology. During the meeting, the parties discussed issues of strengthening scientific and research links between Korea and Azerbaijan, Korean universities and KhazarUniversity. Associate Professor Irada Khalilova, the Rector of Khazar University, and Nailakhanim Isayeva, Advisor to the Board of Directors and Trustees of Khazar University, attended the meeting.




# "DÜNYA" MƏKTƏBİNDƏ ŞAHMAT TURNİRİ KEÇİRİLDİ

# CHESS TOURNAMENT WAS HELD AT "DUNYA" SCHOOL

Avqustun 25-də Xəzər Universitetinin "Dünya" Şahmat Klubunda "Reytinq Rapid Turnir" keçirildi. Yarışda "FIDE ID"-si olan 30 şahmatçı iştirak edirdi.

Turnirin rəsmi açılış mərasimində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin baş məsləhətçisi Salman Əbdülov və "Dünya məktəbi"nin şahmat klubunun rəhbəri, FIDE ustası Elşad Rzayev çıxış edərək, idmanın bu növünün ölkəmizdəki inkişafından danışdılar. Onlar belə turnirlərin şahmatçıların yarış təcrübəsinin zənginləşməsində əhəmiyyətini qeyd etdilər.

Yeddi turdan ibarət İsveçrə sistemi üzrə keçirilən rapid turnirində Xəzər Babazadə, Kamal Ağasıyev və Gövhər Beydullayeva ilk üçlükdə qərarlaşdılar.

Sonda yarışda fərqlənmiş şahmatçılar təltif olundular.

AZƏRTAC və digər media vasitələri tədbir haqqında xəbər yaymışlar:

*https://azertag.az/xeber/Dunya_mektebinde_kechirilen_sahmat_turnirinin_qalibleri_belli_olub-1321899*

*https://www.interpress.az/122330-dnya-mktbind-keiriln-ahmat-turnirinin-qaliblri-blli-olub.htm* və s

On August 25, Khazar University's "Dunya" School Chess Club hosted the "Rapid Chess Championship". 30 chess players, holders of FIDE IDs, took part in the competition.

At the official opening ceremony of the Championship, Salman Abdulov the Chief Adviser of the Baku City Head Office of Youth and Sports, and Elshad Rzayev, the Head of the "Dunya" School Chess Club, FIDE master, delivered talk about the development of this sport in our country. They noted the importance of such tournaments in enriching the chess players' experience.

Khazar Babazade, Kamal Agasiyev and Govhar Beydullayeva were in the top three in the rapid seven-round championship, organized according to the Swiss system.

At the end of the competition distinguished chess players were awarded.

AZERTAC and other media spread news about the event:

*https://azertag.az/xeber/Dunya_mektebinde_kechirilen_sahmat_turnirinin_qalibleri_belli_olub-1321899*

*https://www.interpress.az/122330-dnya-mktbind-keiriln-ahmat-turnirinin-qaliblri-blli-olub.html and* ets.



# "XƏZƏR"İN TƏLƏBƏLƏRİ ANKARADA YAY TƏCRÜBƏ PROQRAMINDA

# KHAZAR UNIVERSITY STUDENTS ON SUMMER INTERNSHIP PROGRAM IN ANKARA

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimovanın təşkilatçılığı ilə psixologiya ixtisasının bir qrup tələbəsi iyulun 29-dan avqustun 26-dək Türkiyənin paytaxtı Ankarada ən tanınan xəstəxanalardan biri olan Özel Boylam xəstəxanasında professor Ertuğrul Köroğlunun rəhbərliyi ilə təşkil edilən yay təcrübə proqramında iştirak edərək, vətənə qayıdıblar.

Tələbələrin xüsusi maraqla qatıldıqları və peşə inkişafı cəhətdən əhəmiyyətli olan yay təcrübə proqramında onlar hər gün nəzəri dərslər keçməklə yanaşı, psixi pozuntusu və maddə asılılığı olan xəstələrlə birbaşa ünsiyyətə girərək, praktiki təcrübə və bacarıqlarını daha da artırdılar. Yay təcrübə proqramında DSM-5 təsnifatına əsasən psixi xəstəliklərin diaqnozu prosesində həftədə üç dəfə birbaşa görüşlərdə iştirak edən tələbələr, eyni zamanda, psixoloji testlər ilə əlaqəli də məlumatlandırıldılar. Grup və fərdi terapiyalarda müşahidələr aparan tələbələr psixoloji konsultasiyanın zəruri prinsiplərini də öyrənirdilər. Xəzər Universiteti Psixologiya departamenti tələbələrdə peşə bacarıqlarının formalaşdırılması məqsədi ilə belə praktikaların təşkilinə dəstək olaraq əmək bazarına cavab verən kadrların yetişdirilməsinə öz töhfəsini verməyə davam edəcək.

From July 29 to August 26, the group of students, majoring in psychology, under the arrangements done by Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University, took part in the summer internship program led by Professor Ertugrul Köroğlu at Özel Boylam Hospital, which is one of the most famous hospitals in Ankara, and returned back home.

In the summer internship program, wherein students participated with a particular interest and which was important for their professional development, beside daily theoretical lessons, students also improved their practical experience and skills by directly communicating with patients with mental disorders and substance addiction. Students participating in the summer internship program, in the process of diagnosing psychiatric disorders, based on DSM-5 (Diagnostic and Statistical Manual) classification three times a week, were also informed about psychological tests. Students observing group and individual therapies also learned the essential principles of psychological counseling.

Khazar University's Department of Psychology will continue to contribute to the training of personnel, consistent with labor market demands, by supporting the organization of such practices aimed at helping students to develop their professional skills.

# GÖRKƏMLİ ALİMİN BİBLİOQRAFİYASININ ÜÇÜNCÜ NƏŞRİ




Görkəmli arxeoloq alim, tarix elmləri doktoru, əməkdar müəllim, Xəzər Universitetinin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru professor Qüdrət İsmayılzadə haqqında "Biblioqrafik məlumat toplusu"nun təkmilləşdirilmiş üçüncü nəşri Ləman Nəşriyyat Poliqrafiya MMC-də çapdan çıxmışdır. Alimin Azərbaycan arxeologiyasında xidmətlərinin əsas hissəsinin əks olunduğu kitabın tərtibçisi və elmi redatoru filologiya üzrə fəlsəfə doktoru Nigar İsmayılzadədir.

Kitabda alimin həyat və fəaliyyətinə, dünyanın müxtəlif olkələrində beynəlxalq elmi tədbirlərdə iştirakına aid fotolar da verilmişdir.

# THIRD EDITION OF PROMINENT SCIENTIST'S BIBLIOGRAPHY

The improved third edition of the "Bibliographic Collection" of Professor Gudrat Ismaylizada, the famous archaeologist, Doctor of Historical Sciences, Honorable teacher, Editor-in-Chief of "Azerbaijan Archeology" Journal, by Khazar University, has been published in Laman Publishing Polygraphy LLC. The author and scientific editor of the book, which reflects the main activities of the scientist in Azerbaijani archeology, is Nigar Ismayilzada, holder of the PhD degree in Philology.

The book also includes photos about the scientist's life and activities, his participation in international scientific events in various countries around the world.



# BOSTONDA YAŞAYAN AZƏRBAYCANLI QIZ – BAKIDAN AMERİKAYA GEDƏN YOL

*2019-cu il avqustun 27-də Modern.az xəbər portalında Xəzər Universitetinin məzunu Xədicə Aşurova haqqında məqalə çap olunmuşdur. Məqaləni oxucularımıza təqdim edirik.*

Amerika Birləşmiş Ştatlarında bilik və bacarıqların hesabına uğur qazanmaq, xoşbəxt gələcək qurmaq üçün heç bir məhdudiyyətin olmadığını düşünənlər az deyil. Amma bu da bir həqiqətdir ki, təzə gələn hər bir insan bu ölkədə həyatını yenidən qurmalı, necə deyərlər, 0-dan başlamalıdır. Bəli, burada qısa zamanda uğur qazanmaq hər adamın hünəri deyil. Bunun üçün əzmkarlıq, böyük iradə, yorulmadan çalışmaq lazım gəlir. Ümumiyyətlə, Amerikada rahat yaşamaq üçün ya çox ağıllı olmalısan, ya da ki, çox işləməyi bacarmalısan...

Bu gün sizə ABŞ-ın Massaçusets ştatının paytaxtı Boston şəhərində məskunlaşan Xədicə Aşurova haqqında söhbət açmaq istəyirəm.

Deyir ki, ikinci dəfə müraciətdən sonra "Green card" udanda sevincinin həddi-hüdudu yox idi: "Doğrudur, valideynlərim Amerikaya getməyimə razı deyildilər, amma sonda çətinliklə də olsa onlardan razılıq aldım"...

O, Bakıda dünyaya gəlib. 2011-ci ildə orta təhsilini 100 nömrəli məktəbdə başa vurub. Sonra dörd il Xəzər Universitetinin psixologiya fakültəsində təhsilini davam etdirib. Universitetin bakalavr pilləsini fərqlənmə diplomu ilə bitirib. 2015-2017-ci illərdə "Parabank"da, 2017-2018-ci illərdə "Sinteks" MMC-də insan resursları üzrə mütəxəssis vəzifəsində çalışıb. 2018-ci ilin aprel ayından Bostonda yaşayır…

…Atası Qulu Aşurov müfəttiş, anası Məlahət xanım isə müəllim işləyir. İbrahim adlı bir qardaşı var. Hazırda Azərbaycan ordusunun əsgəridir.

Xədicə Amerikaya gələndən sonra bir il tam təqaüdlə "Year Up" özəl təhsil müəssisəsində oxuyaraq, maliyyəçi ixtisasına yiyələnib. 2019-cu ilin avqust ayından "JPMorgan Chase & Co." kooperativ bankında maliyyə hesabatı üzrə mütəxəssis vəzifəsində çalışır.

Arzuları çoxdur. Ən böyük arzusu isə Bostonda yaşayan azərbaycanlıları bir araya gətirməkdən ibarətdir. "Year Up"-da iki dəfə çıxış etsə də, indi də "TEDx" proqramında Azərbaycan-Amerika standartlarını müqayisə edərək, həyatda etməli olduğumuz seçimlər barəsində, qarşılaşdığımız fürsətləri dəyərləndirmək və dəyişikliklərə açıq olmaq haqqında amerikalılara danışmaq istəyir. Səyahət etməyi, mütaliəni çox xoşlayır. İndiyədək bir sıra ölkələrdə olub.

"Sözüm ABŞ-a gəlmək istəyən azərbaycanlı gənclərədir. Heç nədən çəkinməsinlər, gəlsinlər. Amma qazanc məqsədi ilə deyil, xoşbəxt olmaq üçün gəlsinlər", - Xədicə deyir.

O, Bostona gələndə 24 yaşı var idi. Gənc bir qızın kapitalizmin amansız qaydalarının hökm sürdüyü, ucu-bucağı görünməyən, insanları bizdən fərqli düşünən nəhəng bir dövlətdə qısa müddətdə özünü təsdiq etməsi əsl möcüzədir.

Bəli, bu gün ölkəmizi tanımayan, onun mövcud olduğundan xəbərsiz olan əksər amerikalılar vaxt gələcək ki, Xədicə Aşurova kimi soydaşlarımızın səyi, uğurları nəticəsində Azərbaycanın necə gözəl, azərbaycanlıların necə istedadlı, bacarıqlı olduğunu yaxşı biləcəklər…

**Elman Eldaroğlu**

*https://modern.az/az/news/209876*

# ARTICLE ABOUT KHAZAR UNIVERSITY'S ALUMNUS ON *MODERN.AZ* NEWS PORTAL

On August 27, 2019, an article about the Khazar University's Alumnus was published on the *Modern.az* news portal. The article, entitled "An Azerbaijani Girl in Boston - The Road From Baku to America" (author Elman Eldaroğlu) discusses Khazar University's graduate Khadija Ashurova's work and activities in the United States. The article was supplemented with photos.

The article can be read at this link:

*https://modern.az/az/news/209876*




# "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDİ AVROPA İNFORMATİKA OLİMPİADASINDA GÜMÜŞ MEDAL QAZANIB

# "DUNYA" SCHOOL'S STUDENT WINS SILVER MEDAL AT EUROPEAN OLYMPIAD IN INFORMATICS

Avqustun 23-29-da Sloveniyanın Maribor şəhərində Yeniyetmələrin Avropa İnformatika Olimpiadası (EJOI2019) keçirilmişdir.

Azərbaycanlı məktəblilərin qatıldığı müsabiqədə Türkiyə, Belçika, Rusiya, Bolqarıstan, Xorvatiya, Estoniya, Fransa, Gürcüstan, Yunanıstan, Macarıstan və digər ölkələrin nümayəndələri də iştirak ediblər.

Xəzər Universiteti "Dünya" məktəbinin X sinif şagirdi Əziz Hüseynov (fotoda sağdan ikinci) olimpiadada uğurla iştirak edərək, gümüş medala layiq görülüb.

Ölkə mediası bu barədə xəbər yaymışdır:
*https://paralel.az/az/article/112517*
*https://lent.az/news/324373*
*https://apa.az/az/sosial_xeberler/azerbaycanli-sagird-avropa-informatika-olimpiadasinda-gumus-medal-qazanib-548065* və s.

The European Junior Olympiad in Informatics (EJOI2019) was held on August 23-29, in Maribor, Slovenia.

The contest, in which Azerbaijani high school students took part, was also attended by the representatives of Turkey, Belgium, Russia, Bulgaria, Croatia, Estonia, France, Georgia, Greece, Hungary and other countries.

Aziz Huseynov (in photo second from right), 10th grade student from "Dunya" School of Khazar University, successfully participated in the Olympiad and was awarded a silver medal.

Country's media reported on this:
*https://paralel.az/az/article/112517*
*https://lent.az/news/324373*
*https://apa.az/az/sosial_xeberler/azerbaycanli-sagird-avropa-informatika-olimpiadasinda-gumus-medal-qazanib-548065* and ets

## MİLLƏT VƏKİLİ XƏZƏR UNİVERSİTETİ HAQQINDA

## MP MENTIONS KHAZAR UNIVERSITY

2016-cu il avqustun 30-da *veteninfo.com* xəbər portalı millət vəkili Aydın Mizəzadə ilə geniş müsahibə dərc etmişdir. Azərbaycan təhsilinin problemlərinə həsr olunmuş müsahibəsində millət vəkili, həmçinin, bu gün dünya universitetlər reytinqinin Xəzər Universitetinin birinci min siyahısında Azərbaycandan yalnız iki universitetin – Bakı Dövlət Universiteti və Xəzər Universitetinin yer aldığını qeyd edir.

Müsahibəni bu linkdə oxumaq olar:

***http://veteninfo.com/az/ali-mekteblerin-yataqxana-problemile-bali-dvlet-proqrami-olmalidir-deputat/***

On August 30, 2019, the *veteninfo.com* news portal published an extensive interview with MP Aydin Mizazade. In the interview, dedicated to the problems of Azerbaijani education, the MP also indicated that only two universities in Azerbaijan - Baku State University and Khazar University are in the list of the top 1000 world universities, according to the World University Ranking 2019.

The interview can be read at this link:

***http://veteninfo.com/az/ali-mekteblerin-yataqxana-problemile-bali-dvlet-proqrami-olmalidir-deputat/***

## PSİXOLOGİYA DEPARTAMENTİNİN TƏLƏBƏLƏRİ SOSİAL LAYİHƏ HƏYATA KEÇİRDİLƏR

## STUDENTS OF PSYCHOLOGY DEPARTMENT IMPLEMENTED SOCIAL PROJECT

Alimlərin araşdırmalarına görə, planetimiz –Yer kürəsi –8,7 milyon növ canlıya və 7 milyarddan çox insana ev sahibliyi edir. Qalaktikada yerləşən bir ədəd nəhəng "top" tərəfindən çox dəstək gözləyirik. Biz onunla ehtiyatlı olmalı və qayğısına qalmalıyıq ki, Yer kürəsi də onun üzərində yaşayan insanlardan, heyvanlardan, bitkilərdən və planetimizi özü üçün ev hesab edən hər bir canlıdan qayğısını əsirgəməsin.

Bəs bunun üçün nə edə bilərik?

Olduğumuz məkandan, peşəmizdən, cinsiyyətimizdən və dinimizdən asılı olmadan, hər birimiz gündəlik həyatımızda kiçik dəyişikliklər edərək, Yer kürəsini qorumaq üçün öz üzərimizə düşəni edə bilərik.

Xəzər Universitetinin Psixologiya departamentinin tələbələri də departamentin müəllimi Nilufər Əlizadənin təşkilatçılığı ilə növbəti sosial layihəni məhz bu mövzuda həyata keçirmişlər. Məqsəd - bu məsələyə, ən azı, digər ölkələrdə olduğu qədər diqqət çəkmək, insanlara gündəlik edə biləcəkləri kiçik dəyişikliklər sayəsində təqdirəlayiq nəticələr ala biləcəkləri haqqında məlumat verməkidi.

Layihənin məlumatlandırıcı videoçarxını bu linklər vasitəsilə izləmək olar:

*https://www.youtube.com/watch?v=QxaHJls*
*https://www.youtube.com/watch?v=2jk3MDNXmfUmd3I*

Scientists believe that our planet – the Earth – is home to more than 8.7 million species and more than 7 billion people. We expect great support from a giant "ball" in the galaxy. We must be caring and mindful about the Earth so that it will not spare its care about the people, animals, plants and every living thing that regards our planet a home for itself.

So what can we about this?

Regardless of where we are, our profession, sex and religion, each of us can do our part to protect the Earth by making small changes in our daily lives.

The subsequent social project organized by Khazar University Psychology Department's students and department's teacher Nilufar Alizade, was precisely dedicated to this theme – particularly to create awareness in our community, to pay attention to this issue, at least as much as it is paid in other countries, and to give information on the possible results that can be obtained.

Project's informative video can be viewed at these links:

*https://www.youtube.com/watch?v=QxaHJls*
*https://www.youtube.com/watch?v=2jk3MDNXmfUmd3I*




# NİPPON FONDU KİM-Ə KİTAB BAĞIŞLADI

# NIPPON FOUNDATION DONATED BOOKS TO LIC

Sentyabrın 2-də Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzində Yaponiyanın Nippon Fondu tərəfindən "Müasir Yaponiyanı anlamaq üçün 100 kitab" layihəsi çərçivəsində hədiyyə verilən kitabların nümayişi və müzakirəsi keçirildi.

Xəzər Universitetinin KİM-nin direktoru doktoru Tatyana Zaytseva Nippon Fondunun missiyası və hədəfləri haqqında qısa məlumat verdi.

Xəzər Universitetinin İngilis dili departamentinin müdiri Dr. Bəhman Amani bu kitabların Xəzər Universitetinin kitabxana kolleksiyasına gözəl bir əlavə olunduğunu bildirdi.

KİM-in əməkdaşları bu kolleksiyanın oxuculara Yaponiya cəmiyyətini tanımaqda kömək edəcəyini yüksək qiymətləndirdilər və Xəzər Universitteti və Nippon Fondu arasında əməkdaşlığın bundan sonra da davam edəcəyinə ümid etdiklərinin bildirdilər.

On September 2, the presentation and discussion of books donated by Japan's Nippon Foundation under the "100 Books to Understand Modern Japan" Project was held at KhazarUniversity Library and Information Center.

Dr. Tatyana Zaitseva, Director of Khazar University LIC, briefed on the mission and goals of the Nippon Foundation.

Dr. Bahman Amani, the Head of English Language and Literature Department said that these books were a wonderful addition to Khazar University's library collection.

The staff of the LIC expressed their firm belief that this collection will help readers to learn about the Japanese community and also expressed their hope that the collaboration between Khazar University and the Nippon Foundation would continue further.

# OKSFORDDA "CREATIVE SPARK" TƏRƏFDAŞLIĞI TOPLANTISI

# CREATIVE SPARK PARTNERSHIP MEETING IN OXFORD

Xəzər Universiteti 2019-cu il üçün "Creative Spark" Tərəfdaşlığı Fondunun qaliblərindən biri kimi sentyabrın 2-dən 4-dək İngiltərənin Oksford şəhərindəki "Creative Spark Oxford" konfransında təmsil olunurdu. Konfransda Xəzər Universiteti adından İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva iştirak edirdi. Xəbər verdiyimiz kimi, "Creative Spark" Tərəfdaşlıq Fondu Orta Asiyanın üç (Qazaxıstan, Özbəkistan, Qırğızıstan), Cənubi Qafqazın üç (Azərbaycan, Ermənistan, Gürcüstan) ölkəsində və Ukraynada müəssisə bacarıqlarının və yaradıcı iqtisadiyyatın inkişafı üçün institusional tərəfdaşlığı inkişaf etdirmək məqsədilə Böyük Britaniyanın dəstəyilə qurulmuş 5 illik bir proqramdır.

İki günlük konfrans sentyabrın 2-də Queens Kollecdə "xoş gəldin" partisi və tanışlıqla başladı. British Council-ın Təhsil və Cəmiyyət qurumunun regional direktoru Richard Everitt qonaqları salamladı.

Sentyabrın 3-də Everitt`in səmimi qəbulundan sonra Böyük Britaniya Baş nazirinin Ticarət üzrə nümayəndəsi Baronessa Nikolson iştirakçıları salamladı, onları qazandıqları nəticələrə görə təbrik etdi və bir çox iştirakçı ölkələrdə müsbət təcrübəsindən danışdı. Xüsusilə, o, Azərbaycana səfəri ilə bağlı təəssüratlarını bildirdi və öz xatirəsini bölüşdü.

*Big Idea Challenge Video Pitch* müsabiqəsinin (iştirakçı ölkələrin tələbələri arasında keçirilən müsabiqə) nəticələrini London Metropolitan Universitetinin nümayəndəsi Christopher Lane təqdim etdi. Müsabiqənin "Sosial təsir" kateqoriyası üzrə qalibi Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbəsi oldu.

Günün sonunda tərəfdaşlıq nümayəndələri öz layihələrini və nəticələrini təqdim etdilər. Xəzər Universiteti üçün yaddaqalan məqam o oldu ki, Newcastle Universitetinin nümayəndəsi, Yaradıcılıq və innovasiya müəllimi Dr. Victoria Mountford-Brown İqtisadi İslahatların Təhlili Mərkəzi ilə birlikdə həyata keçirdikləri layihə haqqında danışarkən, Xəzər Universitetinin tələbələrinin "çox yaradıcı" olduqlarını xüsusi qeyd etdi. Xəzər Universitetinin tələbələri ilin əvvəlində onların təşkil etdikləri müsabiqədə iştirak etmişdilər.

Gün ərzində nümayəndələr öz layihələri haqqında məlumat verdilər, gənc sahibkarlar biznesə başlamaqla bağlı problemləri müzakirə etdilər. Gün şam yeməyi və mükafatlandırma mərasimi ilə başa çatdı.

Sentyabrın 4-də iştirakçı ölkələrin nümayəndələri Milli Siyasətin İnkişafı, Tərəfdaşlığın Davamlılığı və "Creative Spark" Layihələrində İnnovasiya ilə bağlı fikirləri inkişaf etdirmək üçün müzakirə keçirdilər. Müzakirələrdən sonra, nümayəndələr iştirakçıların fikirləri ilə dəstəklənmiş və inkişaf etdirilmiş fikirləri təqdim etdilər. Bağlanış sessiyasından sonra bir çox iştirakçı Oksford Brookes Universitetində keçirilən Beynəlxalq Sahibkarlıq Təlimçiləri Konfransına qatıldılar.

Khazar University, as one of the winners of the Creative Spark Partnership Fund for year 2019, was represented in Creative Spark Oxford Conference, Oxford, UK. Director of Development, Raziya Isayeva participated in the Conference between September 2-4. As previously informed, Creative Spark Partnership Fund is a 5-year programme to develop institutional partnerships for enhancing enterprise skills and creative economy in three countries of Central Asia (Kazakhstan, Uzbekistan, Kyrgyzstan), South Caucasus (Azerbaijan, Armenia, Georgia) and Ukraine with UK support.

Two-day Conference started on 2nd of September with a welcome drink and networking at the Queens College. Welcome remarks were delivered by Mr. Richard Everitt, Regional Director, Education and Society, British Council.

On 3rd of September, after the cordial greetings by Mr. Everitt, welcome address was given by Baroness Nicolson, Prime Minister's Trade Envoy, UK. Baroness Nicolson congratulated participants with the results achieved and talked about her positive experience in many of the participating countries. She especially outlined her impressions and shared her story on her visit to Azerbaijan.

Big Idea Challenge Video Pitch Competition (competition conducted among students of participating countries) results were presented by Christopher Lane, London Metropolitan University representative. Country Champion of the competition was a student of Azerbaijan University of Architecture and Construction, who won a pitch on Social Impact category.

Later in the day, representatives of different partnerships presented their projects and results. Remarkable for Khazar University was that the representative of Newcastle University, Dr. Victoria Mountford-Brown, Lecturer of Creativity and Innovation, in her speech about the project they implement together with Centre for Analysis of Economic Reforms and Communication specifically indicated Khazar University students as 'very creative'. Students of Khazar University took part in the competition they organized in the beginning of the year.

Throughout the day representatives presented their projects, young entrepreneurs discussed issues in starting the business. The day continued with Drinks Reception and Dinner and Award Ceremony in Wadham Dining Hall. Students, winners of the categories and of an International Competition were awarded during the Dinner.

On 4th of September, representatives of each country joined in a team to develop ideas on the National Policy Development, Sustainability of Partnership, and Innovation in Creative Spark Projects. Following the discussion, the reporters presented ideas supported and developed by the participants' views. After the closing session, many participants travelled to Oxford Brookes University for the International Entrepreneurship Educators Conference.




AZERBAIJAN
GEORGIA
KAZAKHSTAN
ARMENIA
50 CREATIVE SPARK PARTNERSHIPS
UZBEKISTAN
KYRGYZSTAN
UKRAINE




CREATIVE SPARK
OXFORD
2- 4 SEPTEMBER 2019

## *MEKTEBGUSHESİ. AZ:* "ABİTURİYENTLƏR ÖZƏL ALİ MƏKTƏBLƏR ARASINDA ƏN ÇOX XƏZƏR UNİVERSİTETİNİ SEÇİB"

## *MEKTEBGUSHESI. AZ:* "APPLICANTS FAVORED KHAZAR UNIVERSITY AMONG PRIVATE UNIVERSITIES"

2019-cu il sentyabrın 5-də *mektebgushesi.az* xəbər portalı həmin başlıq altında geniş xəbər dərc edərək, ali məktəblərə tələbə qəbulu ilə əlaqədar DİM-in elmi-statistik hesabatına istinadən hazırlıqlı abituriyentlərin özəl ali məktəblər arasında ən çox Xəzər Universitetinə üstünlük verdiklərini nəzərə çatdırmışdır. Xəbərdə Xəzər Universitetinə qəbul olunmuş abituriyentlərin orta bal göstəricilərinin də bir sıra dövlət və özəl ali məktəblərdəkindən yüksək olduğu qeyd edilmişdir.

Tam mətn aşağıdakı linkdə:

*https://mektebgushesi.az/2019/09/05/abituriyentl%c9%99r-oz%c9%99l-ali-m%c9%99kt%c9%99bl%c9%99r-arasinda-%c9%99n-cox-x%c9%99z%c9%99r-universitetini-secib/*

September 5, 2019, the *mektebgushesi.az* news portal published a wide-ranging report under the same title, highlighting that applicants preferred Khazar University among private universities, with reference to the State Examination Center's Scientific and Statistical Report on Admission to Universities. In the news it is also noted that the average scores of the applicants admitted to Khazar University are higher than in some other public and private universities.

The full text may be found at the link below:

*https://mektebgushesi.az/2019/09/05/abituriyentl%c9%99r-oz%c9%99l-ali-m%c9%99kt%c9%99bl%c9%99r-arasinda-%c9%99n-cox-x%c9%99z%c9%99r-universitetini-secib/*

## XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU *BANKER. AZ* SAYTININ TƏRTİB ETDİYİ BANK SƏDRLƏRİ SİYAHISINDA

## KHAZAR UNIVERSITY ALUMNUS IS AMONG THE LIST OF BANK CEOS COMPILED BY *BANKER.AZ*



2019-cu il sentyabrın 7-də *banker.az* saytı Azərbaycanda fəaliyyət göstərən 27 bankın idarə heyətinin sədrlərinin (CEO-lar) hansı ali məktəbləri bitirdikləri haqqında tərtib etdiyi siyahını açıqlamışdır. Siyahıda 1993-1997-ci illərdə Xəzər Universitetində əvvəl hüquq, sonra isə biznes idarəçilik ixtisası üzrə təhsil almış, hazırda Bank of Baku-nun İdarə Heyətinin sədri olan Eldar Həmidov da yer almışdır.

Tam siyahı bu linkdə:

*https://banker.az/azerbaycanda-bank-sedrleri-harada-tehsil-aliblar-arasdirma/*

On September 7, 2019, the *banker.az* website published a list of the CEOs of the 27 banks, operating in Azerbaijan, indicating from which universities they graduated. The list also includes Eldar Hamidov, who studied law at Khazar University between 1993-1997 and then majored in business administration, and currently is the Chairman of the Board of the Bank of Baku.

The full list may be found at this link:

*https://banker.az/azerbaycanda-bank-sedrleri-harada-tehsil-aliblar-arasdirma/*



# XƏZƏR UNİVERSİTETİNİN MAGİSTRATURA MƏZUNUNA VƏZİFƏ VERİLDİ

# KHAZAR UNIVERSITY ALUMNUS ASSIGNED TO SENIOR POSITION

2019-cu il sentyabrın 9-da ölkənin bir sıra xəbər saytları Xəzər Universitetinin magistratura məzunu Cəlalə Nəzəroğlunun "Libraff" kitab mağazaları şəbəkəsinə rəhbər təyin olunması haqqında xəbər yaymışlar.

Qeyd edək ki, Cəlalə Nəzəroğlu 1984-cü ildə anadan olub. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində bakalavr təhsili alıb. Xəzər Universitetinin Humanitar və Sosial elmlər fakültəsinin magistratura pilləsini fərqlənmə diplomu ilə bitirib.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində nitq mədəniyyəti müəllimi və Diksiya Akademiyası MMC-nin təsisçisi və rəhbəridir.

*https://axar.az/news/hadise/404361.html*

*https://www.musavat.az/xeber/taninmis-jurnaliste-vezife-verildi-2-131845*

*https://www.aznews.az/news/society/237166.htm* və s.

On September 9, 2019, country's number of news websites published news about the appointment of Jalala Nazararoglu, Khazar University alumnus, as the Director of the "Libraff" bookstore network.

It is worth mentioning that Jalala Nazararoglu was born in 1984. He obtained his undergraduate degree in Journalism from Baku State University. He received his master's degree with honors from Khazar University School of Humanities and Social Sciences.

He currently teaches speech culture at the Faculty of Journalism at Baku State University and is the founder and head of the Diction Academy LLC.

*https://axar.az/news/hadise/404361.html*

*https://www.musavat.az/xeber/taninmis-jurnaliste-vezife-verildi-2-131845*

*https://www.aznews.az/news/society/237166.htm* and etc.




# TARİXİ MƏKANA EKSKURSİYA

# ANOTHER HISTORICAL TOUR WAS ORGANIZED

Avqustun 8-de Azərbaycanın maddi-medeni irsini təbliğ və təşviq edən "Şəhər incəsənəti. Azərbaycan" layihəsi növbeti seferini terefdaşları olan Xezer Universiteti ve AMEA-nın desteyilə yenicə tedqiq olunmağa başlanan qədim abidenin arxeoloji qazıntı sahəsinə təşkil etdi.

Bu səfər AMEA-nın Memarlıq ve İncəsənət İnstitutu Təhsil şöbəsinin müdiri Pərvanə Əliyeva, AMEA-nın Arxeologiya ve Etnoqrafiya İnstitutu Tedris ve beynəlxalq əlaqələr şöbəsinin elmi işçisi Fidan Əliyeva, Xezər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov, Humanitar, təhsil ve sosial elmlər fakültəsinin tələbələri, "Şəhər incəsənəti" layihəsinin iştirakçıları və təşkilatçılarının iştirakı ilə gerçəkləşdi. Səfərin hədəfi 2016-cı ildən ilk dəfə elmi-akademik tədqiq olunmağa başlayan Şabran rayonunun Aygünlü kəndi ərazisində yerləşən və Erkən Tunc dövrünə aid olan "Çaqqallıtəpə" abidəsinə tanışlıq ekskursiyası idi.

Səfər əsnasında öncə rayon ərazisində fəaliyyət göstərən Tarix və Diyarşünaslıq Muzeyinə ekskursiya təşkil olundu. Sonra Aygünlü kəndi "Çaqqallıtəpə" abidəsinə tanışlıq ekskursiyası baş tutdu. Daha sonra isə qrup Şabran Orta əsr şəhər yerinə qısa baxış keçirdi.

Erkən Tunc dövrünə aid olan "Çaqqallıtəpə" abidəsi bir neçə təpədən ibarətdir. Samur-Dəvəçi kanalının çəkilişi zamanı kəşf edilən qədim yaşayış məntəqəsindən bir sıra məişət əşyaları tapılmışdır. Bundan başqa burada ocaq izlərinə, saxsı qablara və s. maddi-mədəni arxeoloji tapıntılara rast gəlmək olar.

Səfər AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun və Xəzər Universitetinin İctimai əlaqələr və media şöbəsinin dəstəyi ilə həyata keçirilmişdir. İstər Xəzər Universitetinin səfərdə iştirak edən tələbələri, istərsə də qeyd edilən layihənin iştirakçıları Azərbaycanın maddi-mədəni irsi, onun təbii gözəlliyi və zəngin keçmişinin araşdırılması ilə əlaqəli çoxsaylı suallara cavab tapmış oldular.

On August 8, the subsequent visit within the "City Art. Azerbaijan" Project aimed at promoting Azerbaijan's Material and Cultural Heritage, was organized to the archeological excavation site of the ancient monument, which has just begun to be explored with the support of its partners Khazar University and ANAS.

The visit was implemented by virtue of the involvement of the participants and organizers of the "City Art" project - Parvana Aliyeva, Head of Education Department of ANAS Institute of Architecture and Art, Fidan Aliyeva, Research Officer, Department of Education and International Relations, Institute of Archeology and Ethnography of ANAS, Orkhan Zamanov, Instructor at Khazar University's History and Archeology Department, the students of the Faculty of Humanities, Education and Social Sciences. The purpose of the visit was to familiarize with the "Chakkallitepe" monument of the Early Bronze Age, located in the Aygunlu village of Shabran district, which began to be at the center of the scientific and academic scrutiny for the first time since 2016.

During the visit, an excursion to the Museum of History and Ethnography was held. Then there was a familiarization excursion to the Chakkallitepe monument in Aygunlu village. Then the group made a brief overview of the medieval city of Shabran.

Ancient Bronze Age statue of Chakkallitepe consists of several hills. A number of household items were found in the ancient settlement discovered during the construction of the Samur-Davachi channel. In addition, hearths, pottery, and other material and cultural archeological artifacts can be found here.

The visit was conducted with the support of the Institute of Archeology and Ethnography of ANAS and Khazar University Public Relations and Media Department. Rainfall added a special color to this interesting trip. The invited students of Khazar University, as well as the participants of the project, had the opportunity to find answers to the numerous questions related to the study of Azerbaijan's material and cultural heritage, its natural beauty and rich history.






DO IT NOW.
Sometimes Later
Becomes Never







# AZƏRBAYCAN VƏKİLLİYİ – 100 İL (1919-2019)

**Akif Əlizadə**
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Xəzər Universiteti Hüquq Departamentinin müəllimi*

## Azərbaycan Rusiya İmperiyasının tərkibində

Azərbaycan vəkilliyinin inkişafı bir neçə tarixi mərhələdən keçib. 10 fevral 1828-ci ildə Rusiya İmperiyası ilə Qacar (Məmləkəti Məhrusi Qacar) İmperiyası arasında bağlanan Türkmənçay müqaviləsi Azərbaycan adlı məmləkətin şimal və cənub hissələrə bölünməsinin təsdiqi və sonu oldu. Bu müqavilədən sonra Araz çayı sərhəd olmaqla Azərbaycanın şimal ərazisi Rusiya İmperiyasının, cənubu isə həmin dövrdə Qacar İmperiyası, 20-ci əsrin əvvəllərindən isə İran adlanan dövlətin idarəçiliyinə keçdi.

Azərbaycanın şimal hissəsinin işğalından otuz-



qırx il sonra, 19-cu əsrin ikinci yarısı Rusiya imperiyası əhəmiyyətli islahatlarla yadda qaldı. 1861-ci ildə təhkimçiliyin ləğvindən sonra imperiyada ciddi məhkəmə islahatı aparılmağa başlandı və bütün çarlıq ərazisini əhatə edən 20 noyabr 1864-cü il tarixli Məhkəmə Nizamnaməsi qəbul edildi.




1864-cü il Məhkəmə Nizamnaməsinə uyğun olaraq imperiya ərazisində yeni vəkillik institutu yarandı. Nizamnaməyə görə vəkillik 2 hissədən ibarət idi: ali kateqoriyalı vəkillər – andlı müvəkkillər, aşağı kateqoriyalı vəkillər – şəxsi müvəkkillər adlanırdı. Andlı müvəkkilləri yerli özünüidarə orqanı seçir və onların fəaliyyətinə nəzarət edirdi. Andlı müvəkkillər ali hüquq təhsilli, 5 il hüquq ixtisasına malik, yaşı 25-dən az olmayan və məhkum olmamış şəxslər seçilə bilərdi. Şəxsi müvəkkillərin isə ali hüquq təhsili olmaya da bilərdi, onlar məhkəmədə imtahan verərək yalnız qeydiyyatdan keçdikləri məhkəmədə az əhəmiyyətli işlərlə məşğul ola bilərdi.

1864-cü il Məhkəmə Nizamnaməsinə uyğun aparılan məhkəmə islahatı xüsusi qərarla 22 noyabr 1866-cı ildən Cənubi Qafqaza (Azərbaycana) da şamil olundu. Azərbaycan əyalətlərində (Bakı və Yelizavetpol quberniyaları) məhkəmə idarələri bir sıra məhdudiyytələrlə 1868-1869-cu illərdən fəaliyyət göstərməyə başladı. O vaxta qədər isə əyalətlərdə dünyəvi məhkəmələrin və bu məhkəmələrdə fəaliyyət göstərən vəkillik təsisatının olması haqda səhih məlumat vardır. Xanlıqlar dövründə yerlərdə şəriət məhkəmələri (qazilər) və onların yanında fəaliyyət göstərən mirzələr olub. Şəriət məhkəməsi və mirzəlik bizim indiki məhkəmə və vəkillik təsisatımıza bənzəsə də, bir az dünyəvi, bir az da dini olmaqla islam qaydaları və adət-ənənələri ilə fəaliyyət göstərib. Hərçənd ki, Rusiya İmperiyası 10 aprel 1840-cı il inzibati-məhkəmə islahatı ilə Cənubi Qafqazın (əsasən Azərbaycanın) məhkəmə sistemində ciddi dəyişiklik edilməsini – şəriət məhkəmələrinin ləğv edilməsini nəzərdə tutsa da, islahat sona çatdırılmamış, dünyəvi məhkəmə və vəkillik institutu 1864-cü il Məhkəmə Nizamnaməsinin qəbulundan sonra təşəkkül tapmışdır.

1864-cü il məhkəmə Nizamnaməsinin Azərbaycanda tətbiqindən sonra bir neçə azərbaycanlı gənc Rusiya İmperiyasının Moskva, Peterburq, Odessa, Kiyev və Xarkov Universitetlərinin hüquq fakültəsinə daxil olmuş, təhsillərini başa vurduqdan sonra Azərbaycana qayıdaraq məhkəmə-vəkillik fəaliyyəti ilə məşğul olmuş, Məhkəmə Nizamnaməsinin Azərbaycanda gerçəkdən reallaşmasına və mənsub olduqları xalqın hüquq və azadlıqlarının müdafiə edilməsinə çalışmışlar.

## Azərbaycan vəkilliyinin baniləri: 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində vəkil olan tanınmış şəxslər



Azərbaycan vəkilliyinin banisi (və ya banilərindən birincisi) - 1863-cü il mayın 4-də Tiflis şəhərində anadan olmuş Əlimərdan bəy Topçubaşov ilk təhsilini Tiflisdə müsəlman mədrəsəsində almış, daha sonra Tiflis Birinci Klassik gimnaziyasında təhsilini uğurla başa vuraraq Peterburq Universitetinin tarix-filologiya fakultəsinə daxil olmuşdu. Topçubaşov birinci semestrdən sonra həmin universitetin hüquq fakultəsində təhsilini davam etdirmiş, 1888-ci ildə hüquq fakultəsini fərqlənmə diplomu ilə bitirərək həmin il də dissertasiya müdafiə edib hüquq elmləri

namizədi elmi dərəcəsini almışdı. Universitetin hüquq fakültəsinin Elmi Şurası Topçubaşovun mülki hüquq kafedrasında saxlanması və professor vəzifəsi almaq üçün hazırlanması haqqında qərar qəbul etmişdi. Lakin bu qərar o halda qüvvədə ola bilərdi ki, Topçubaşov provaslavlığı qəbul etsin. Ə.Topçubaşov provaslavlığı qəbul etməkdən imtina etdiyindən ona təhsil aldığı Universitetdə qalaraq elmi fəaliyyətini davam etdirməyə və dərs deməyə icazə verilməmişdi. Bundan sonra o, anadan olduğu Tiflis şəhərinə qayıtmış, Tiflis Dairə Məhkəməsində əvvəlcə katib, daha sonra isə müstəntiq və hakim işləmişdir.

Ə.Topçubaşov 1893-cü ildə böyük mütəfəkkir Həsən bəy Zərdabinin qızı Pəri xanımla ailə quraraq Bakı şəhərinə köçmüşdür. Ə.Topşubaçov 1896-cı ildən Bakı Dairə Məhkəməsində andlı müvəkkil statusunda vəkillik fəaliyyətinə başlamış və tez bir zamanda tanınmış, nüfuzlu və ilk peşəkar azərbaycanlı vəkil olmuşdur. Məhz buna görə də Azərbaycan vəkilliyinin başlanğıcı Əlimərdan bəy Topçubaşovun adı ilə bağlıdır.

Ə.Topçubaşov Bakıda peşəkar vəkilliklə yanaşı ictimai-siyasi sahədə də fəaliyyət göstərmiş, 1897-ci ildə Bakı şəhər Duması seçkilərində uğur qazanan ilk 3 müsəlman ziyalıdan biri olmuşdur. Bundan başqa o, 1898-ci ildən o dövrün ən populyar nəşri olan "Kaspi" qəzetində baş redaktorluq etməyə başlamış, bu nəşrdəki məqalələri ilə müsəlmanların (azərbaycanlıların) azadlıq və dirçəliş yoluna işıq salmışdır.

Ə.Topçubaşov 1902-ci ildə Bakı şəhər Dumasının (Özünü idarə edən orqanın) sədri seçilmişdi. 20-ci əsrin əvvəllərində bütün çar Rusiyasında görkəmli siyasi xadim kimi tanınan Topçubaşov 1905-ci ildə Rusiya 1-ci Dövlət Dumasının üzvü seçilərək müstəmləkədən azad olmaq mübarizəsində mənsub olduğu xalqının önündə getmiş və bu yol onu müstəqil Azərbaycan Xalq Cumhuriyyətinin əsas qurucularından birinə çevirmişdi.

Ə.Topçubaşov Azərbaycan Xalq Cumhuriyyəti (AXC) dövründə (1918-1920) Parlamentin sədri olmuşdur. AXC-nin süqutundan sonra Ə.Topçubaçov Fransada qalmağa məcbur olmuş və 8 noyabr 1934-cü ildə Parisdə vəfat etmişdir.

1875-ci il noyabrın 25-də Şəki şəhərində anadan olan Fətəli xan Xoyski 1897-ci ildə Moskva Universitetinin hüquq fakultəsini bitirmiş, həmin ildən Gəncə (Yelizavetpol) Dairə Məhkəməsi yanında kiçik məhkəmə məmuru təyin edilmişdir. 1907-ci ildən qısa müddətdə F.Xoyski Kutaisidə və Suxumidə də məhkəmə sistemində çalışmış, daha sonra Bakı Dairə Məhkəməsində andlı müvəkkil statusunda vəkillik etmişdir.

F.Xoyski vəkillik fəaliyyəti ilə yanaşı siyasi fəaliyyətlə də məşğul olmuş, 1907-ci ildə Gəncə (Yelizavetpol) quberniyasından Rusiya 2-ci Dövlət Dumasının üzvü seçilmişdir. F.Xoyski də Azərbaycan Xalq Cumhuriyyətinin əsas qurucularından biri olmuşdu. O, AXC dövründə hökumət başçısı, daxili işlər və xarici işlər naziri vəzifələrini tutmuşdu. AXC-nin süqutundan sonra F.Xoyski Tiflisə köçmüş, 19 iyun 1920-ci ilə orada bolşevik-erməni daşnak qüvvələri tərəfindən qətlə yetirilmişdir.



1867-ci il avqustun 15-də Gəncə şəhərində (Yelizavetpol quberniyası) anadan olmuş İsmayıl xan Ziyadxanov Moskva Universitetinin hüquq fakultəsini bitirərək əvvəlcə Tiflis Dairə Məhkəməsində prokuror müavini, 20-ci əsrin əvvəllərindən isə Gəncə və Bakı Dairə Məhkəmələrində andlı müvəkkil statusunda vəkillik etmişdir.



İsmayıl xan Ziyadxanov Azərbaycan milli istiqlal hərəkatının ən fəal üzvlərindən biri olaraq Xalq Cumhuriyyətinin əsas qurucularından olmuşdu. O, AXC dövründə hərbi müvəkkil və Xarici İşlər Nazirinin bi-

rinci müavini olmuş, Cumhuriyyətin süqutundan az sonra, 05 may 1920-ci ildə işğalçı Qızıl Ordunun hərbi səhra məhkəməsi tərəfindən güllələnmişdir.

1870-ci il Gəncə şəhərində (Yelizavetpol quberniyası) anadan olmuş Xəlil bəy Xasməmmədov 1895-ci ildə Moskva Universitetinin hüquq fakultəsini bitirərək əvvəlcə Yekatirinodar Dairə Məhkəməsində müstəntiq, 20-ci əsrin əvvəllərindən isə Gəncə və Bakı Dairə Məhkəmələrində andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.



Xəlil bəy Xasməmmədov nüfuzlu vəkil olmaqla yanaşı görkəmli dövlət xadimi kimi də tanınmış, digər həmkarları ilə birgə Azərbaycan milli istiqlal hərəkatının öncüllərindən olmuşdur. O, 1907-ci ildə Rusiya 2-ci Dövlət Dumasının üzvü seçilmiş, 1913-1918-ci illərdə isə Gəncə (Yelizavetpol) şəhər Bələdiyyəsinin rəisi olmuşdur.

Azərbaycan Xalq Cumhuriyyətinin əsas qurucularından biri kimi X.Xasməmmədov milli hökumətdə Ədliyyə Naziri və Daxili İşlər Naziri vəzifələrini tutub. 1920-ci ilin aprel ayında Xasməmmədov Türkiyə Cumhuriyyətinə səfir təyin edilmiş, işğaldan sonra İstanbulda yaşamış və bütün həyatını Azərbaycan istiqlaliyyətinin bərpa edilməsinə həsr etmiş, 1945-ci ildə İstanbulda vəfat etmişdir.

Fətəli xan Xoyskinin kiçik qardaşı - 1888-ci il noyabrın 5-də Şəki şəhərində anadan olan Rüstəm xan Xoyski 1913-cü ildə Peterburq Universitetinin hüquq fakultəsini bitirmiş, Gəncə və Bakı Dairə Məhkəmələrində andlı müvəkkil statusunda vəkillik etmiş-dir.

R.X.Xoyski Rusiyadakı 1917-ci il fevral burjua in-



qilabından sonra siyasi fəaliyyətlə də məşğul olaraq Azərbaycan Xalq Cumhuriyyətin qurucularından olmuş, yeni formalaşan milli hökumətdə müxtəlif rəhbər vəzifələrdə işləmişdir. AXC-nin süqutundan sonra R.X.Xoyski həbs edilərək sürgünə göndərilmiş, bir neçə illik sürgün həyatından sonra Moskvaya getmiş və 1939-cu ildə orada vəfat etmişdir.

1880-cı il martın 12-də Naxçıvanın Şahtaxtlı kəndində anadan olan Həmid bəy Şahtaxtinski 1912-ci ildə Odessa Universitetinin hüquq fakultəsini bitirmiş, həmin ildən Gəncə (Yelizavetpol) Dairə



Məhkəməsində iki il andlı müvəkkilin köməkçisi, sonra Bakı Dairə Məhkəməsində andlı müvəkkil kimi fəaliyyətini davam etdirmişdir.

Həmid bəy Şahtaxtinski də digər həmkarları kimi AXC-nin qurucularından olmuş, milli hökumətdə müxtəlif vəzifələr tutmuşdu. Cumhuriyyətin süqutundan sonra Həmid bəy Şahtaxtinski Bakıda qalaraq müxtəlif vəzifələrdə işləmiş, 1941-ci ildə həbs edilərək Rusiyanın Arxangelsk şəhərindəki həbsxanaya göndərilmiş və 1943-cü ildə orada vəfat etmişdir.

1881-cı il sentyabrın 30-da Gəncə qəzasının Səfikürd kəndində anadan olan Aslan bəy Səfikürdski 1901-ci ildə Xarkov Universitetinin hüquq fakultəsinə daxil olmuş, 1902-ci ildə öz xahişi ilə Peterburq Universitetinə köçürülmüş, 1907-ci ildə hüquq fakultəsini bitirdikdən sonra Gənşə şəhərinə qayıtmışdır. O, 1907-1911-ci illərdə Gəncə Dairə Məhkəməsində andlı müvəkkil köməkçisi, 1911-1917-ci illərdə isə andlı müvəkkil statusunda vəkillik fəaliyyəti ilə məşğul olmuşdur.

Aslan bəy Səfikürdski də digər həmkarları kimi ya-



şadığı dövrün nəinki tanınmış vəkili, həm də görkəmli siyasi xadimi, Azərbaycan milli istiqlal hərəkatının ən fəal üzvü və öncüllərindən olmuşdur. Azərbaycan Xalq Cumhuriyyətinin əsas qurucularından və liderlərindən biri olan Səfikürdski milli hökümətdə əmək, ədliyyə, poct və teleqraf naziri vəzifələrini tutmuşdu. AXC-nin süqutundan sonra A.Səfikürdski həbs edilərək cəzaya məhkum edilmiş, 1925-ci ildə cəza müddəti bitdiyindən Bakıya qayıdaraq burada yaşamış, cəza müddətində aldığı məhrumiyyətlər üzündən ağır xəstəliyə tutulmuş və 1937-ci ildə vəfat etmişdir.

1889-cu ildə Şuşa şəhərində (Yelizavetpol quberniyası) anadan olmuş Nəriman bəy Nərimanbəyli 1915-ci ildə Xarkov Universitetinin hüquq fakultəsini bitirərək İrəvan şəhərində andlı müvəkkil statu-



sunda vəkillk fəaliyyəti ilə məşğul olmuşdur. N.Nərimanbəyli də Azərbaycan milli istiqlal hərəkatının ən fəal üzvlərindən biri kimi Azərbaycan Xalq Cumhuriyyətinin qurulmasında yaxından iştirak etmiş, milli hökumətdə dövlət müfəttişi vəzifəsini tutmuşdur. Aprel işğalından sonra N.Nərimanbəyli Bakı şəhərində vəkil işləmiş, 1937-c ildə repressiyaya məruz qalmışdır.

1880-cı il martın 28-də Salyanda nüfuzlu ruhani, sonralar (1894-cü ildən)Qafqaz Müsəlmanları İdarəsinin rəisi - şeyxülislam olmuş Əbdüssalam Axundzadənin ailəsində doğulmuş Rəşid bəy Axundzadə 1921-ci ildə Kiyev Universitetinin hüquq fakultəsini bitirərək Bakı Dairə Məhkəməsində andlı müvəkkil statusunda vəkillik etmişdir. R.Axundzadə də Azərbaycan milli istiqlal hərəkatının fəal üzvü olmuş, Azərbaycan Xalq Cumhuriyyətinin



qurulmasında yaxından iştirak etmiş, milli hökumətdə işlər idarəsinin müdiri, daha sonra Bakı şəhərinin qubernatoru təyin edilmişdir. Aprel işğalından sonra təqiblərə məruz qalaraq repressiya qurbanlarından olmuş, 1937-ci ildə sürgünə göndərilmiş və 1940-cı ildə sürgündə vəfat etmişdir.

## Azərbaycan Xalq Cumhuriyyəti dövrü

20 noyabr 1864-cü il Məhkəmə Nizamnaməsi Azərbaycan Xalq Cumhuriyyəti dövründə də işlək olmuşdur. Ancaq AXC-nin Ədliyyə Nazirliyi 30 iyul 1919-cu ildə Azərbaycan Dairə Məhkəmə Palatası Andlı Müvəkkillər Şurasının yaradılması haqqında qərar qəbul etmiş və vəkillik AXC devrilənə qədər adı çəkilən Şuranın rəhbərliyi altında fəaliyyət göstərmişdir.

Qürurverici haldır ki, Azərbaycan Xalq Cumhuriyyəti qurulana qədər Bakı və Gəncədə fəaliyyət göstərən vəkillərin hamısı milli hökumət quruculuğunda fəal iştirak edərək gənc dövlətin liderliyinə qədər yüksəlmişlər.

AXC liderlərindən Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, İsmayıl xan Ziyadxanov, Xəlil bəy Xasməmmədov, Rüstəm xan Xoyski və Rəşid bəy Axundzadə 20-ci əsrin əvvəllərində Məhkəmə Nizamnaməsinə uyğun olaraq vəkillərin reyestrində - Bakı Dairə Məhkəməsi Andlı Müvəkkillərin Siyahısında qeydə alınsalar da, AXC yaranana qədər vəkillik (andlı müvəkkillər) fəaliyyəti ilə məşğul olmuş, Cumhuriyyət quruculuğunda fəal iştirak edən və sonradan milli hökumətdə yüksək vəzifə tutan digər vəkillər - Həmid bəy Şahtaxtinski, Aslan bəy Səfikürdski və Nəriman bəy Nərimanbəyli məlum olmayan səbəbdən nə Bakı, nə də Gəncə Dairə Məhkəməsinin Andlı Müvəkkillərinin Siyahısında qeydə alınmamışlar.

Bir məqamı da vurğulamağı zəruri sayıram. 1828-ci il işğalından sonra Rus imperiyasının bütün milli ucqarlarda olduğu kimi Cənubi Qafqazda (Azərbaycanda) da apardığı anti müsəlman-türk siyasətinin nəticəsi idi ki, 1870-ci ildən başlayaraq ən azı yarım əsr ərzində Gəncə və Bakı Dairə Məhkəmələrinin hakimləri və andlı müvəkkillərin (vəkillər) böyük hissəsi qeyri-türk (müsəlman) millətindən olmuşdur. Bakı Dairə Məhkəməsi sədrinin Ədliyyə Nazirliyinə ünvanladığı 14 avqust 1919-cu il tarixli, 4254 nömrəli məktubuna əlavə edilmiş Bakı Dairə Məhkəməsi Andlı Müvəkkillərin siyahısında 106 nəfər andlı müvəkkildən cəmi 6 nəfəri - Ə.Topçubaşov, Fətəli xan və Rüstəm xan Xoyski qardaşları, Xəlil bəy Xasməmmədov, İsmayıl xan Ziyadxanov və Rəşid bəy Axundzadə müsəlman-türk olmuş, digər andlı müvəkkillər isə rus, erməni, yəhudi və digər millətlərdən olmuşlar. Gəncə Dairə Məhkəmə sədrinin Ədliyyə Nazirliyinə ünvanladığı 09 avqust 1919-cu il tarixli, 1496 nömrəli məktubuna əlavə edilmiş Gəncə Dairə Məhkəməsi Andlı Müvəkkillərin siyahısında 5 nəfər andlı müvəkkilin 2-i rus, 3 nəfəri isə erməni olmuşdur. Bu ona görə baş vermişdir ki, imperiyanı idarə edənlər milli azlıqların rus ali məktəblərinə daxil olmasına süni əngəllər yaradır və hər vəchlə çalışırdı ki, milli əyalətlərdə yerli xalqın nümayəndəsi olan daha az məmur olsun. Bu barədə o dövr andlı müvəkkil kimi fəaliyyət göstərən, Gəncədən (Yelizavetpol quberniyası) Rusiya İmperiyası 1-ci Dövlət Dumasının üzvü olan millət vəkili İsmayıl xan Ziyadxanov 1906-cı ildə Dumanın iclasında söylədiyi nitqində demişdi: "Biz müsəlmanlara bəzi ali məktəblərə girmək haqqı verilməmişdir. Başqa ali məktəblərə isə yalnız diplom almaq xatirinə girilməkdədir. Məmur olmaq məsələsinə gəlincə, bu gün Qafqaz daxilində bir yüksək təhsilli mülki hakim istisna edilərsə, öz vətənində xidmət edən bir müsəlman məmuruna rast gəlməzsiniz"

**Fikrimcə, 1896-1920-ci illəri əhatə edən dövrü Azərbaycan vəkilliyinin inkişafı tarixinin birinci mərhələsi hesab etmək olar.**

## Azərbaycan Sovet dövrü

Azərbaycan Xalq Cumhuriyyəti hökuməti 28 aprel 1920-ci ildə devrildikdən az sonra hakimiyyəti mənimsəyən bolşevik hökuməti - Azərbaycan İnqilab Komitəsi əvvəlki vəkillik institutunu (andlı və şəxsi müvəkkillər) ləğv etmiş, əvəzində İttihamçılar və Müdafiəçilər Kollegiyasının yaradılması haqqında 13 may 1920-ci il tarixli qərar qəbul etmişdir. 23 may 1920-ci ildə Bakı şəhərində 36 nəfərdən ibarət İttihamçılar və Müdafiçilər Kollegiyası təsis edilmişdi.

Azərbaycan Xalq Komissarları Sovetinin 9 aprel 1922-ci il tarixli, 24 saylı dekreti ilə isə əvvəlki İttihamçılar və Müdafiçilər Kollegiyası ləğv edilmiş və hüquqi yardım büroları vasitəsilə əhaliyə hüquqi yardım göstərməli olan Müdafiəçilər Kollegiyası yaradılmış, daha sonra Azərbaycan SSR-nin Mərkəzi İcraiyyə Komitəsinin 17 noyabr 1923-cü il tarixli Dekretilə "Məhkəmə quruluşu haqqında" Əsasnamə qəbul edilmiş, vəkillik fəaliyyəti bu əsasnaməyə uğun olaraq Cinayət və Mülki İşlər üzrə Müdafiəçilər Kollegiyası kimi xalq dairə məhkəmələrinin nəzdində fəaliyyət göstərmişdir.

1927-ci ildə Azərbaycan Xalq Komissarları Soveti və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin birgə qərarları ilə "Məhkəmə quruluşu haqqında" Əsasnamə qəbul edilmişdi. Bu Əsaname ilə vəkillik institutunun təşkilində bəzi dəyişikliklər edilmiş, vəkillik fəaliyyəti xalq dairə məhkəmələrinin nəzdindən ayrılaraq Ali Məhkəmənin nəzdində və nəzarətində olan Müdafiəçilər Kollegiyası kimi təşkil edilmişdi.

1930-cu ildə Azərbaycan Xalq Komissarları Sove-

ti və Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi həmin Əsasnamədə hüquqi yardımla bağlı bəzi dəyişikliklər etdi. Bu dəyişikliyə görə vətəndaşlar hüquq yardımı üçün hüquq məsləhətxanalarında birləşən kollektivin istənilən üzvünə müraciət edə bilərdilər. Ali Məhkəmənin nəzdində və nəzarətində olan Müdafiəçilər Kollegiyası daha uzun müddətə - 1939-cu ilədək mövcud olmuşdu.

**1920-1939-cu illər arasındakı dövrü Azərbaycan vəkilliyinin inkişafı tarixinin ikinci mərhələsi hesab etmək olar.**

SSRİ Xalq Komissarları Sovetinin 16 avqust 1939-cu il tarixli qərarı ilə təsdiq edilmiş "SSRİ-də vəkillik haqqında Əsasnamə"nin qəbulundan sonra Azərbaycan SSR-də (bu vaxta qədər mövcudluğunu cüzi də olsa saxlayan) Vəkillər Kollegiyası yarandı.

Bu Əsasnaməyə uyğun olaraq yaradılan Vəkillər Kollegiyasının əsas vəzifəsi hüquq məsləhətxanaları vasitəsilə əhaliyə hüquq yardımının göstərilməsi idi. Bu Əsasnaməyə görə Vəkillər Kollegiyasının üzvü seçkili vəzifə və elmi- pedaqoji fəaliyyətdən savayı dövlət qulluğunda işləyə bilməzdi. Halbuki, həmin vaxta qədər mövcud olan Əsasnamə vəkillərə istənilən dövlət (və ya kollektiv) müəssisəsində hüquq məsləhətçisi vəzifəsi tutmağa imkan verirdi. Əsasnamə 2-ci dünya müharibəsi və sonrakı uzun illər ərzində işlək olmuşdur. Bunu da vurğulamağı istərdim ki, ikinci dünya müharibəsi zamanı Azərbaycan Vəkillər Kollegiyasının 119 üzvü cəbhəyə yollanmış və Azərbaycan adına vətən uğrunda döyüşmüşlər.

25 dekabr 1958-ci ildə qəbul edilən "SSRİ müttəfiq respublikalarının məhkəmə quruluşu haqqında qanunvericiliyin əsasları"na görə Vəkillər Kollegiyası hər bir müttəfiq respublikanın Ali Sovetinin qəbul etdiyi qanunvericilik əsasında fəaliyyət göstərməli idi. Sözügedən "Əsaslara" uyğun olaraq Azərbaycan SSR Ali Soveti 8 dekabr 1960-cı ildə "Vəkillik haqqında Əsasnamə" qəbul etmiş, bu Əsasnaməyə görə Vəkillər Kollegiyasının fəaliyyətinə nəzarəti Nazirlər Soveti həyata keçirmişdir. Azərbaycan SSR Ali Sovetinin 20 oktyabr 1965-ci ildə qəbul etdiyi "Vəkillik haqqında Əsasnamə"yə görə isə Vəkillər Kollegiyasının fəaliyyətinə nəzarəti Ədliyyə Nazirliyi həyata keçirmiş, bu Əsasnamə 1980-cı ilə qədər qüvvədə olmuşdur.

**1939-1979-cu illər arasındakı dövrü Azərbaycan vəkilliyinin inkişafı tarixinin üçüncü mərhələsi hesab etmək olar.**

30 noyabr 1979-cu ildə "SSRİ-də vəkillik haqqında" yeni qanun qəbul olunmuş, bu qanuna uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi 13 noyabr 1980-cı il tarixli qanunla "Azərbaycan SSR-də vəkillik haqqında" yeni və təxminən 19 il – 1980-1999-cu illər ərzində işlək olan Əsasnamə qəbul edilmişdir. Bu Əsasnaməyə görə Vəkillər Kollegiyası vəkillik fəaliyyəti ilə məşğul olan vəkillərin könüllü birliyi olmuşdur. Vəkillər Kollegiyası ali hüquq təhsilli şəxslərdən ibarət təsisçilər qrupunun təklifi əsasında və ya müvafiq Xalq Deputatları Sovetinin icra və sərəncam orqanının təşəbbüsü ilə yaradılırdı. Əsasnaməyə görə Vəkillər Kollegiyasını yaratmaq haqqında təklif Azərbaycan SSR Ədliyyə Nazirliyinə göndərilir, nazirlik təkliflə razılaşdıqda təsdiq və qeydiyyat üçün onu Nazirlər Sovetinə, yaxud da yerli İcra orqanına göndərirdi. Bu əsasnamə əsasında yaradılan Vəkillər Kollegiyası əvvəlkitək (dolayısı ilə) Ədliyyə Nazirliyinə tabe etdirilmişdi. Əsasnamədə indiki "Vəkillər və vəkillik fəaliyyəti haqqında qanun"a oxşar xeyli məqamlar olsa da, fərqli cəhətləri də az olmamışdır. Bu Əsasnamədə vəkillər kollegiyasının orqanları, vəkilliyə qəbul qaydaları, vəkilin pulsuz hüquq yardımı göstərməsi, vəkilin intizam məsuliyyətinə alınması məsələləri və sair tam fərqli qaydada nizamlanmışdır. "Azərbaycan SSR-də vəkillik haqqında" həmin (və sonuncu) Əsasnaməyə görə Vəkillərin ixtisas komissiyası olmamış, vəkilliyə qəbul zamanı iki il hüquq stajı tələb olunmuş, bu staj ümumiyyətlə olmadıqda və ya iki ildən az olduqda altı aydan bir ilə qədər kollegiyada staj keçməklə üzv olmaq imkanı olmuş, vəkilin bütün yox, yalnız konkret mülki işlərdə (məsələn aliment və əmək mübahisələri ilə bağlı) pulsuz hüquq yardımı göstərə bilmək hüququ olmuşdu. Əsasnaməyə görə Ədliyyə Nazirinin vəkilin intizam məsuliyyətinə dair iş qaldırmaq barədə Rəyasət Heyyətinin sədrinə təklif vermək səlahiyyəti olmuşdur. Əsasnamədə vəkil andı, vəkil etikası və vəkil sirri nəzərdə tutulmamışdır. Əsasnaməyə görə hüquqi yardım göstərilməsi işinin həcmi kifayət qədər olmadıqda rəyasət heyyəti vəkilin hüquq məsləhətçisi kimi işləməsinə icazə verə bilərdi.

**Azərbaycan vəkilliyinin inkişafı tarixinin dördüncü mərhələsi hesab edilən 1980-1991-ci illər arasındakı dövrdə** vəkillik tarixində ilk dəfə bir neçə tanınmış vəkil fəxri ad almışdır. "Vəkillərin bir qrupuna "Azərbaycan SSR əməkdar hüquqşünası" fəxri adının verilməsi haqqında" Azərbaycan SSRİ Prezidentinin 4 fevral 1991-ci il tarixli, 172 nömrəli Fərmanı ilə vətəndaşların, təşkilatların, müəssisələrin mənafeyinin hüquqi mühafizəsi və hüquqi biliklərin yayılması sahəsində uzun illər səmərəli işlədiklərinə görə vəkillər Atakişiyev Salam İbrahim oğlu, İsmiyev Teymur Əlibaba oğlu, Skirta Sergey Mixayloviç və Carçıyev Davud Hacıkərim oğluna Azərbaycan SSR əməkdar hüquqşünası fəxri adı verilmişdir.

## Azərbaycan müstəqillik dövründə

18 oktyabr 1991-ci ildə ölkəmizin parlamenti "Müstəqillik haqqında" Konstitusiya Aktını qəbul etdi və SSRİ adlanan dövlətdən ayrılan (ittifaqdan çıxan) Azərbaycan Respublikası müstəqil dövlət oldu.






Müstəqilliyin ilk illərində bir çox qanunlar kimi 13 noyabr 1980-cı il tarixli qanunla təsdiq edilmiş "Azərbaycan SSR-də vəkillik haqqında" Əsasnamə də 1999-cu ilə qədər – hazırda qüvvədə olan qanunun qəbuluna qədər qüvvədə olmuşdur.

Qeyd etmək lazımdır ki, 1992-2000-ci illərdə adıçəkilən əsasnamə əsasında vəkillik fəaliyyəti ilə yanaşı (sahibkarlıq fəaliyyəti kimi göstərilən) xüsusi razılıq əsasında pullu hüquqi xidmət növü də mövcud olmuş, belə xidməti göstərənlər isə mülki və inzibati işlərlə yanaşı hətta cinayət işlərində də müdafiəçi qismində iştirak edə bilmişlər. Vəkillər Kollegiyasının Bakı şəhərində, eləcə də digər şəhərlərdə və rayonlarda fəaliyyət göstərən hüquq məsləhətxanaları ilə yanaşı müxtəlif adlarla pullu hüquq xidməti göstərən özəl – Vəkillər Kollegiyasından kənar hüquq firmaları və şirkətləri də fiziki və hüquqi şəxslərə "vəkil" adı ilə hüquqi yardım göstərmişdir.

Müstəqilliyinin ilk illərini yaşayan Azərbaycan Respublikasında Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 12 noyabr 1995-ci ildə hüquqi dövlətin tələblərinə tam cavab verən Konstitusiya qəbul olunmuş, ölkə tarixində ilk dəfə olaraq hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ konstitusiya ilə təsbit edilmişdir. Konstitusiyada qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz, dövlət hesabına göstərilməsi, hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ təsbit edilmişdir.

Bundan sonra Azərbaycan Respublikasının Milli Məclisi "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli qanun qəbul etmiş, Azərbaycan vəkilliyi bu vaxtadək bu qanun və ona müxtəlif vaxtlarda edilən əlavə və dəyişikliklərə əsasən fəaliyyət göstərməkdədir. Bu qanunla ilk dəfə olaraq vəkillik təsisatı tam müstəqil, özünü idarəedən, heç bir dövlət orqanından asılı olmayan qeyri-dövlət qurumu kimi formalaşdı. Bu qanunda əvvəlki hüquqi aktlardan fərqli olaraq vəkillərin hüquqları və vəzifələri genişləndirilmiş, vəkillik fəaliyyətində yeni institutlar yaranmış və demək mümkünsə vəkillik fəaliyyətində ciddi və mütərəqqi "nizam-intizam" müəyyənləşmişdir. Belə ki, sözügedən qanunun qəbulundan sonra cinayət işləri üzrə məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda müdafiəçi qismində yalnız Vəkillər Kollegiyasının üzvlərinin iştirak edə bilməsi təsbit edilmiş, daha sonra qanuna edilən 11 iyun 2004-cü il tarixli dəyişikliklə cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi, məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi, mülki işlər və inzibati mübahisələrə dair işlər üzrə şəxsin Azərbaycan Respublikası Ali Məhkəməsində təmsil edilməsi, habelə hüquq və azadlıqlarının pozulması ilə bağlı şikayət vermiş ərizəçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində təmsil edilməsi vəkillik fəaliyyətinin müstəsna dairəsi hesab edilmişdir. Bundan başqa qanunda vəkillik

fəaliyyətinin təminatı, qanunda nəzərdə tutulmuş qaydada vəkil statusunu əldə etməmiş şəxs tərəfindən vəkil adından qanunsuz istifadə olunmasının Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olması, vəkil andı, vəkil sirri, vəkil etikası, vəkilliyə qəbul qaydaları, ixtisas komissiyası və sair əhəmiyyətli məsələlərlə bağlı müddəalar əksini tapmışdır.

28 dekabr 1999-cu ildə qəbul edilmiş "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun "Keçid müddəaları"nın 2-ci bəndində "Bu Qanunun Keçid müddəalarının qüvvəyə mindiyi gündən üç ay müddətində yeni Vəkillər Kollegiyasını təsis etmək üçün təsis yığıncağının keçirilməsi" nəzərdə tutulsa da, təsis yığıncağının keçirilməsi 2004-cü ilin sonuna qədər yubanmışdır.

**Azərbaycan vəkilliyinin inkişafı tarixinin beşinci mərhələsi hesab edilə bilən 1992-2004-cü illəri əhatə edən dövrü** bəzi müşahidəçilər vəkilliyin inkişafı baxımından durğunluq və "vəkillik fəaliyyətində qeyri-müəyyənliyin" hökm sürdüyü dövr kimi də xarakterizə edirlər. Ona görə ki, bu dövrdə adı çəkilən qanun qəbul olunaraq qüvvəyə minsə də, qanuna uyğun yeni Vəkillər Kollegiyası yaradılmamış, çox az sayda üzvləri olan və üzvlüyə qəbul prosesində çətinlikləri olan Vəkillər Kollegiyası demək mümkünsə əvvəlki "sovet ənənəsi" ilə fəaliyyət göstərmiş, vəkillikdə hər hansı irəliləyiş olmamışdır.

**Azərbaycan vəkilliyinin inkişafı tarixinin altıncı mərhələsi hesab edilən dövr** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun keçid müddəalarına uyğun qaydada vəkillərin Təsis Yığıncağının keçirilməsi və Azərbaycan Respublikasında (yeni) Vəkillər Kollegiyasının təsis edilməsi ilə başlamışdır. Ancaq bəri başdan demək olar ki, bu dövr də özündən əvvəlki dövrdən "durğunluğuna" görə fərqlən-məmişdir. Vəkillər Kollegiyasının 04.11.2004-cü il tarixli Təsis Yığıncağının qərarına əsasən (Yeni) Vəkillər Kollegiyası təsis edilsə də, uzun müddət vəkillik fəaliyyətində "köhnə sovet" ənənəsi yenə də üstünlük təşkil etmiş, nəzəri yeniliklər təcrübədə tam təşəkkül tapa bilməmiş, vəkilliyin maddi-texniki təminatında heç bir irəliləyiş – inkişaf olmamış, vəkil qurumları Vəkillərin baş ofisinin yerləşdiyi bina kimi sovetdən qalma "köhnə-kürüş" və darısqal məkanlardan çıxa bilməmiş, Kollegiyasının beynəlxalq əlaqələri demək olar olmamış, Kollegiyaya üzv olmaq üçün xeyli problemlər olduğundan ölkədə çox az sayda, 300 nəfərdən bir az çox vəkil olmuş, regionlarda hər kəsin yüksək keyfiyyətli hüquq yardımı almaq kimi konstitusion hüququ məhdud həddə olmuş, Azərbaycanın əksər rayonlarında vəkil qurumları olmamış, mülki işlər üzrə məhkəmə prosesində qanundan və sivil qaydalardan kənar "özbaşına nümayəndəlik institutu" tüğyan edərək qanuni vəkillik fəaliyyətini sıxışdırmış, dövlət hesabına pulsuz hüquq yardımının göstərilməsində çox ciddi qüsurlar olmuş, hər kəsin konstitusion yüksək keyfiyyətli hüquq yardımı almaq hüququ çox tez-tez pozulmuş və ən acınacaqlısı odur ki, həmin dövr Vəkillər Kollegiyasının rəhbərliyi bütün baş verənləri sadəcə seyr etməklə kifayətlənmiş, nəinki vəkillik təsisatının nüfuzuna, eləcə də dövlətin və cəmiyyətin maraqlarına cavab verən hər hansı tədbirlər görməmiş və ya buna təşəbbüs göstərməmişdir.

04.11.2004-cü il tarixdə (Yeni) Vəkillər Kollegiyası təsis edilməsindən az sonra Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması üzrə tədbirlər barədə" 11 mart 2005-ci il tarixli, 669 nömrəli Sərəncam vermişdir. Həmin Sərəncamla ölkə Konstitusiyasında təsbit edilmiş hüquqi yardım almaq hüququnun daha səmərəli həyata keçirilməsini təmin etmək üçün Azərbaycan Respublikasının yeni təsis edilmiş Vəkillər Kollegiyasının maddi-texniki təminatını yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdı ki, iki ay müddətində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının fəaliyyətinin təşkili üçün müvafiq bina və maddi-texniki təminat ilə bağlı məsələləri həll etsin, nəqliyyat vasitələrinin alınması və vəkillərin xüsusi geyim formasının hazırlanması üçün vəsait ayırsın. Buna baxmayaraq nəinki vəkilliyin maddi-texniki təminatı, həm də vəkilliyin baş ofisinin də şəraiti əvvəlki "sınıq-salxaq" vəziyyətindən çıxa bilməmişdir.

**Azərbaycan vəkilliyinin ən yeni tarixi**

**Azərbaycan vəkilliyinin inkişafı tarixinin yeddinci mərhələsi hesab edilən dövr** 07 dekabr 2017-ci ildə keçirilən Vəkillər Kollegiyasının konfransı ilə başladı. Bundan öncə vəkillər Kollegiyasının əvvəlki sədri Azər Tağıyev səhhəti ilə əlaqədar vəzifəsindən istefa vermişdi. 110 nümayəndənin iştirak etdiyi konfransda hüquq elmləri üzrə fəlsəfə doktoru, Hakimlərin Seçki Komitəsinin üzvü, Ədliyyə Akademiyasının "Vəkillərin peşəyə buraxılış və ixtisasartırma fakültəsi"nin dekan əvəzi, Akademiyanın elmi şurasının üzvü, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 may tarixli Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilən tanınmış və nüfuzlu vəkil Anar Bağırov Vəkillər

Kollegiyası Rəyasət Heyətinin sədri, tanınmış vəkillər Aydın Axundov və Pərviz Ələkbərov isə sədrin müavinləri seçildilər. Əvvəlcədən deyə bilərəm ki, bu konfrans Azərbaycan Respublikası Vəkillər Kollegiyasına yeni rəhbərliklə yanaşı həm də vəkilliyə yeni nəfəs gətirdi.

Vəkillər Kollegiyasının rəhbəriyində olan kadr dəyişikliyindən az sonra vəkilliyin acınacaqlı durumunun sürətlə dəyişilməsi və inkişafı məqsədilə vəkillik təsisatında dövlət və cəmiyyət üçün həyati əhəmiyyət daşıyan islahatlar həyata keçirilməyə başlandı. İslahatlar komleks şəkildə aparıldı və hazırda da davam etməkdədir. Belə ki, yeni rəhbərlik



bir tərəfdən müəyyən qismi yuxarda sadalalan, uzun illər yığılıb qalmış problemlərin köklü həllinə başladı, digər tərəfdən isə Kollegiyanın əvvəllər olmayan beynəlxalq əlaqələrinin yaradılması və Azərbaycan vəkilliyinin səviyyəsini sivil ölkələrin vəkilliyinə çatması üçün xeyli işlər gördü və bu işlər indi də davam edir.

Bu dövrə təsadüf edən bir məqamı da xatırlatmaq yerinə düşərdi. 2017-ci ilin payızı məhkəmədə nümayəndəlik institutunun yenidən təşkili, hüquqi yardımın Azərbaycan Respublikası Konstitusiyanın 61-ci maddəsinə uyğun təşkil edilməsi üzrə diskussiyalarla yadda qaldı. Azərbaycan dövləti hər kəsin yüksək keyfiyyətli hüquqi yardımla təmin olunması öhdəliyinin icrasını qanunla vəkillik təsisatının üzərinə qoyub. Bu baxımdan məhkəmədə şəxsin hüquq və azadlıqlarını yüksək səviyyədə müdafiə etmək Konstitusiya və qanunla vəkilliyin birbaşa vəzifəsi olsa da, bu sahədə uzun müddət tüğyan edən özbaşınalığa və ya "anarxiyaya" vaxtında və prinsipial etiraz bildirilməmişdi. Bütün hüquqi dövlətlərdə məhkəmədə hüquq və azadlıqların müdafiəsi ilə vəkillər, yaxud da bu fəaliyyətlə məşğul olmağa müvafiq dövlət orqanı tərəfindən verilmiş xüsusi razılıqla hüquqşünaslar məşğul olurlar. Hüquqi dövlət ərazisində olan hər kəsin yüksək keyfiyyətli hüquqi yardım hüququnu tanıyır. Ona görə də vəkillik fəaliyyətinin nəzarətdən kənarda olmaması məntiqə uyğundur. Təssüf ki, ölkəmizdə uzun müddət özünü vəkil adlandıran "özbaşına" nümayəndəlik mövcud olmaqla vəkillik təsisatının, habelə dövlətin və cəmiyyətin maraqlarına zərbə vurmuşdur. Gec də olsa məhkəmə hakimiyyəti "özbaşına" nümayəndəliyə son qoymaq üçün qanunvericilik təşəbbüsü ilə çıxış etmiş, Milli Məclisin qəbul etdiyi 31 oktyabr 2017-ci il tarixli, 853 VQD nömrəli qanunla Mülki-Prosessual Məcəllədə ciddi dəyişiklik edilərək nəhayət ki, hər kəsin yüksək hüquqi yardım almaq hüququnun kütləvi pozuntusunun qarşısı alınmışdır. 01 yanvar 2018-ci ildən qüvvəyə minən həmin qanunla Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinə (AR MPM) 69.1-1-ci maddəsi əlavə edilmişdir. Bu maddəyə görə fiziki şəxsin nümayəndəsi onun yaxın qohumu və ya vəkil (bu Məcəllənin 71-ci maddəsində nəzərdə tutulan şəxslər istisna olmaqla) ola bilər. Nümayəndənin məhkəmədə iş aparmaq səlahiyyəti lazımi qaydada rəsmiləşdirilməlidir. Bundan başqa sözügedən qanunla AR MPM-nin 70-ci maddəsi ləğv edilərək mülki prosesdə nümayəndə ola biləcək şəxslərin dairəsi dəqiqləşdirilmiş, bununla da qeyri-hüquqşünasların və ya "ozbaşına" nümayəndələrin, eləcə də vəkil adından qanunsuz istifadə edən hüquqşünasların uzun müddətli qanunsuz fəaliyyətlərinə son qoyulmuşdur. Sözügedən ciddi və əhəmiyyətli dəyişiklik vəkillər ordusu, hüquq cəməsi və cəmiyyət tərəfindən alqışlansa da, etiraz edənlər də olmuşdu. Buna görə Vəkillər Kollegiyasının yeni rəhbərliyi ertirazçılara müraciət edərək onları qanunla nəzərdə tutulmuş qaydada vəkil olmağa dəvət etmiş, yüzlərlə hüquqşünas bu təklifdən bəhrələnərək Vəkillər Kollegiyasına üzv qəbul olmuşlar. "Özbaşına" nümayəndəliyin ləğv edilməsində, eləcə də vəkil adından qanunsuz istifadəyə qarşı mübarizə tədbirlərinin təşkili prosesində hələ sədr seçilmədən də fəal iştirak edən, vəkilliyin nüfuzunun özünə qaytarılması üçün mümkün olanı edən Anar Bağırov sözügedən konfransdan sonra bu sahədə olan problemlərin köklü həlli üçün hər şeyi etdi. Hazırda əminliklə deyə bilərik ki, vəkil



adından qanunsuz istifadədən və "özbaşına" nümayəndəlikdən tam xilas olmuşuq.

Azərbaycan vəkilliyinin hazırkı inkişafından danışarkən "Azərbaycan Respublikasında vəkilliyin in-kişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22.02.2018-ci il tarixli Sərəncamı xüsusi qeyd edilməlidir. Ona görə ki, Vəkillər Kollegiyasının yeni rəhbərliyi adı çəkilən Sərəncamı öz fəaliyyətində rəhbər tutaraq əməli işlərə başlamışdır. Vəkillər Kollegiyası üzvlərinin sayının artırılması, vəkil olmaq istəyən şəxslərin öz arzularına tez və maneəsiz çatması üçün vəkilliyin tarixində ilk dəfə olaraq 2018-ci ildə 2 dəfə imtahan keçirilmiş və 600 nəfərdən çox hüquqşünas vəkil peşəsinə yiyələnmişdir. Rəqəmlərə diqqət edək: (Yeni) Vəkillər Kollegiyası təsis edilən ərəfədə - noyabr 2004-cü ildə Kollegiyanın 300 nəfərdən bir qədər artıq üzvü olmuş, Kollegiyanın son konfransı keçirilən ərəfədə - dekabr 2017-ci ildə isə üzvlərin sayı 934 nəfərə çatmış, 2018-ci ilin sonuna isə Kollegiya üzvlərinin sayı 1503 nəfər olmuşdur. Bu o deməkdir ki, Kollegiyanın əvvəlki rəhbərliyi dövründə 13 ildə (2004-2017-ci illərdə) 600-ə yaxın hüquqşünas kollegiyaya üzv ola bilmişdirsə, indiki rəhbərliyin dövründə cəmi 1 il ərzində eyni sayda hüquqşünas kollegiyaya üzv ola bilib. Bunu da vurğulamaq yerinə düşər ki, son dəfə keçirilən imtahanda da 100-dən artıq hüquqşünasın uğurlu nəticəsi var və tezliklə o sayda hüquqşünasın da kollegiyaya üzv olacağı və bu ilin sonuna – vəkilliyin 100 illik yubiley ilində vəkillərin sayının 2000 nəfərə çatdırılması gözlənilir.

Hazırda regionlarda fəaliyyət göstərən vəkillərin sayı 393 nəfər, onlardan 143 nəfəri fərdi qaydada fəaliyyət göstərir. Bakı şəhərindəki vəkillərin sayı isə 1110 nəfər, onlardan 105 nəfəri fərdi qaydada fəaliyyət göstərir. Bakı şəhərində 27 vəkil qurumu, regionlarda isə 15, cəmi 42 vəkil qurumu fəaliyyətdədi və bu rəqəm artmağa doğru gedir.

Azərbaycan vəkilliyinin inkişafı naminə həyata keçirilən kompleks işlərin hamısını sadalaya bilməsəm də, ən əhəmiyyətlilərini vurğulamağı özümə borc bilirəm. Dekabr 2017-ci il konfransında "Vəkillərin etik davranış qaydaları" haqqında Əsasnamə qəbul edildi. Vəkil qurumları hüquq məsləhətxanası adından imtina edərək vəkil büroları adlandırıldı.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 may 2018-ci il tarixli, 202 saylı qərarı ilə dövlət hesabına pulsuz hüquq yardımına görə vəkillərə ödənilən qonararın məbləği üç dəfə artırıldı. Vəkillərin baş Ofisi köhnə və "sovet" məkanından çıxıb yeni və müasir binaya köçdü. Bakı şəhəri və regionlardakı vəkil bürolarının əksəriyyəti müasir tələblərə cavab verən şəkildə təmir edilib vəkillərin istifadəsinə verildi. Həm Bakı şəhərində, həm də regionlarda yeni vəkil qurumları yarandı və ona doğru gedilir ki, Azərbaycanın bütün rayonlarında vəkil büroları yaradılsın və vəkillik üzərinə düşən vəzifəni bütün ölkə boyu yerinə yetirsin. Habelə regional məhkəmələrin yerləşdiyi şəhərlərdə regional vəkil büroları yaradıldı və yaradılmaqda davam edir. Vəkil yardımına çatımlılığı tezləşdirmək və asanlaşdırmaq üçün ASAN Xidməti ilə əməkdaşlığa dair Memorandum imzalanaraq Xidmətin rayonlarda yerləşən mərkəzlərində vəkil büroları yaradılaraq fəaliyyətə başladı.

İlk dəfə olaraq vəkillərin azərbaycan və ingilis dilində elektron reyestri yaradıldı. Bu reyestrin sayəsində vətəndaşların vəkillərin ümumi məlumatlarına çatımlılığının təmin edilməsi məqsədilə vəkillərin zəruri anket məlumatları toplanıb və bu məlumatlar Kollegiyanın rəsmi veb-səhifəsində yaradılmış müvafiq bölmədə yerləşdirilmişdir. Bu məlumatlara əsasən, hüquqi yardıma ehtiyacı olan istənilən şəxs öz tələblərinə uyğun vəkili asanlıqla müəyyən edə, onunla rahat şəkildə əlaqə saxlaya bilir. Bundan başqa ölkədə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində yaradılmış elektron məhkəmə sis-

temindən vəkillərin istifadəsinin asanlaşdırılması və stimullaşdırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə əldə olunmuş razılığa əsasən vəkillərin Asan İmza ilə təmin olunması istiqamətində də tədbirlər görülməkdədir.

"Azərbaycan Vəkili" jurnalı nəşr edilməyə başlamış, Vəkillər Kollegiyasının müasir tələblərə cavab verən (internet səhifəsi) saytı yaradılmışdır. Vəkillər Kollegiyası bu vaxt ərzində 20-ə yaxın ölkənin Vəkillər Kollegiyası, o cümlədən Türkiyə, Rusiya Federasiyası, Ukrayna, Belarus, Gürcüstan, Qazaxıstan, Almaniya və sair ölkələrin Vəkillər Kollegiyası, eləcə də Avropa Vəkillər Birliyi və Beynəlxalq Vəkillər İttifaqı ilə yaxın əlaqələr qurmuş, Kollegiyanın təşkilatçılığı ilə son ilyarım ərzində Bakı şəhərində vəkillik və vəkilin ədalət mühakiməsindəki roluna dair 3 mötəbər beynəlxalq tədbir keçirilmişdir. Vəkillər Kollegiyasının gələcək üçün hədəflərindən biri də Vəkillər Kollgiyasına üzv olmaq üçün keçirilən yazılı və şifahi imtahandan savayı namizədlərin yazı və nitq qabiliyyətinin də yoxlanmasıdır. Bu dəyişiklikdə ona istiqamətlənib ki, vəkillərin peşəkarlığı və ədalət mühakiməsindəki rolu daha da artsın.

Hazırda vəkillik fəaliyyəti üçün önəmli məsələ olan - cinayət proseslərində əvvəllər mövcud olmuş və "formal vəkillik" adını almış - dövlət hesabına göstərilən pulsuz hüquq yardımının səmərəliliyini artırmaq məqsədilə kompleks tədbirlər görülür; o məqsədlə ki, dövlət hesabına göstərilən hüquq yardımı yüksək keyfiyyətlə həyata keçirilsin.

Bu ərəfədə Azərbaycan Respublikası Prezidentinin 03 aprel 2019-cu il tarixdə verdiyi "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı dövlət hesabına göstərilən hüquq yardımının yüksək keyfiyyətlə yerinə yetirilməsinə böyük dəstək hesab edilir. Həmin Fərmanla hökumətə tapşırılmışdır ki, dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin dəqiq proqnozlaşdırılmasını və mərkəzləşdirilmiş uçotunu təmin etmək məqsədilə cari ilin və növbəti illərin dövlət büdcəsində dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaitin birbaşa Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına ayrılması barədə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.Fərmanla hökumətə verilən tapşırıq həll edildikdən sonra əminliklə demək mümkün olacaq ki, dövlət hesabına həyata keçirilən hüquqi yardımın keyfiyyəti daha da yüksək olacaq.

Və nəhayət Vəkillər Kollegiyası 30 iyul 1919-cu il tarixini - Azərbaycan Dairə Məhkəmə Palatası Andlı Müvəkkillər Şurasının yaradılması gününü Azərbaycan Vəkilliyinin yaranması günü kimi qeyd edilməsi barədə qərar qəbul edərək tariximizi zənginləşdirmiş, həmçinin vəkillik fəaliyyətinə layiq olduğu dəyər və önəmi vermişdir.

**İstifadə olunan mənbələr:**


1. Azərbaycan tarixi: Uzaq keçmişdən 1870- ci ilə qədər. Red. S.S.Əliyarlı. 1996
2. Azərbaycan dövlət və hüquq tarixi. X.X.İsmayılov 2006
3. Колониальная политика Российского царизма в Азербайджане. Т.И. М-Л 1936
4. Суд Присяжных в России. Громкие уголовные процессы 1864–1917. С.М.Казанцев. Лениздат, 1991. стр. 11-12
5. Cumhuriyyət qurucuları. Nəsiman Yaqublu. Bakı -2018
6. Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin 1919-cu ilə aid olan Ədliyyə Nazirliyinin Azərbaycan Dairə Məhkəmə Palatası Andlı Müvəkkillər Şurasının yaradılması haqqında qərarı, Bakı Dairə Məhkəməsi sədrinin Ədliyyə Nazirliyinə ünvanladığı 14 avqust 1919-cu il tarixli, 4254 nömrəli məktubuna əlavə edilmiş Bakı Dairə Məhkəməsi Andlı Müvəkkillərin siyahısı və Gəncə Dairə Məhkəməsi sədrinin Ədliyyə Nazirliyinə ünvanladığı 09 avqust 1919-cu il tarixli, 1496 nömrəli məktubuna əlavə edilmiş Gəncə Dairə Məhkəməsi Andlı Müvəkkillərin siyahısı
7. 50 лет Советской адвокатуры в Азербайджане. Статья Заместителя председателя Президиума Коллегии Адвокатов Азербайджанской ССР А.А.Абдуллаева «История организации советской адвокатуры в Азербайджане», стр.19-31 (Материалы научно-практической конференции Коллегии Адвокатов Азербайджанской ССР. Баку 30.05.1972)
8. История советской адвокатуры. М.П.Шаламов. Москва Юриздат. 1939 стр. 51-53
9. Azərbaycan SSR Vəkilliyi haqqında Əsasnamə. Bakı. 1981



# "CREATİVE SPARK" LAYİHƏSİ İLƏ BAĞLI ƏMƏKDAŞLARLA GÖRÜŞ

# STAFF MEETING ON "CREATIVE SPARK" PROJECT HELD

Sentyabrın 10-da Xəzər Universititetində "Creative Spark" layihəsi ilə bağlı ilk görüş keçirildi. Görüşdə İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva əməkdaşları layihə ilə tanış etdi. Layihənin məqsədi dizayn ixtisasında təhsil alan tələbələrin biznes bacarıqlarını inkişaf etdirmək olduğu üçün müvafiq departament və dekanlıqlardan olan əməkdaşlarla layihə barədə müzakirələr aparıldı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbirdə çıxış etdi.

Qeyd edək ki, Xəzər Universiteti Birləşmiş Krallığın Middlesex Universiteti ilə əməkdaşlıqla 2019-cu il üçün elan olunmuş "Creative Spark" proqramının qalibi olmuşdur. Xəbər verdiyimiz kimi, bu çərçivədə əməkdaş universitetlər sentyabrın əvvəlində Böyük Britaniyanın Oksford şəhərində ilkin görüşlərini keçirmişlər.

On 10th of September, the initial meeting on the "Creative Spark" project has been held at Khazar University. Raziya Isayeva, Director of the Development office, gave information to the staff about the project. As the project's goal is to enabling students from Design and Arts to develop their entrepreneurship skills, purposeful discussion happened with the respective departments' staff. Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered speech at the event.

It is worth mentioning that Khazar University in partnership with Middlesex University Higher Education Corporation, UK is one of the winners of Creative Spark Partnership Fund 2019 supported by the British Council. The first meeting within its framework has been held with all partners in Oxford, UK in the first week of September.








## ARXEOLOJİ LÜĞƏTİN TƏRTİBİ ÜZRƏ İLK TƏŞƏBBÜS

Azərbaycan elmində arxeoloji lüğətin tərtibi üzrə ilk təşəbbüs - tarix elmləri doktoru, Xəzər Universitetinin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının baş redaktor müavini Tarix Dostiyevin "Arxeoloji lüğət" kitabı "Elm və təhsil" nəşriyyat - poliqrafiya müəssisəsində çapdan çıxmışdır. Kitabın elmi redaktoru tarix elmləri doktoru professor Qüdrət İsmayılzadədir.

Lüğətdə arxeologiya elmində işlədilən başlıca anlayış və istilahlar şərh edilir, arxeoloji dövrlər səciyyələndirilir, mühüm arxeoloji mədəniyyətlər, abidələr haqqında yığcam məlumat verilir.

Kitab mütəxəssislər, həmçinin, ulu keçmişlə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.

## FIRST INITIATIVE TO COMPILE ARCHAEOLOGICAL DICTIONARY

The first initiative to compile an archaeological dictionary in Azerbaijani science is the book entitled "Archeological Dictionary", by Tarikh Dostiyev, Doctor of Historical Sciences, Deputy Editor-in-Chief of "Azerbaijan Archeology" Journal, by Khazar University, has been published at the "Elm & Tehsil" Publishing Polygraphy house. The scientific editor of the book is Professor Gudrat Ismaylizada, Doctor of Historical Sciences.

The dictionary describes key concepts and terms used in archeological science, characterizes archaeological periods, and gives concise and at the same time important information on archaeological cultures and monuments.

The book is intended for professionals, as well as readers interested in the great history of the past.

## "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" VƏ "KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY" JURNALLARI ƏDLİYYƏ NAZİRLİYİ TƏRƏFİNDƏN QEYDİYYATA ALINMIŞDIR

## "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" AND "KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY" ARE REGISTERED BY THE MINISTRY OF JUSTICE

Xəzər Universitetinin nəşri olan "Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") və "Khazar Journal of Science and Technology" ("Xəzər elm və Texnologiya jurnalı") jurnalları qaydalara uyğun olaraq 2019-cu il sentyabrın 13-dəyenidən Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

Hər iki nəşrin təsisçisi və baş redaktoru Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır.

On September 13, 2019, "Khazar Journal of Humanities and Social Sciences" published by Khazar University and "Khazar Journal of Science and Technology" has been registered by the Ministry of Justice.

The Founder and the Editor-in-chief of both publications is Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.



# "AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALI KOLLEKTİVİNİN NÖVBƏTİ İCLASI

# SUBSEQUENT MEETING OF "AZERBAIJAN ARCHAEOLOGY" JOURNAL HELD

Sentyabrın 11-də Xəzər Universiteti Tarix və arxeologiya departamentində "Azərbaycan arxeologiyası" jurnalının növbəti sayının çapa hazırlanması ilə əlaqədar redaksiya heyətinin geniş iclası oldu. İclasda jurnalda çap olunması gözlənilən məqalələrə baxış keçirildi, jurnalın saytının, beynəlxalq standart və göstəricilərinin daha da təkmilləşdirilməsi, o cümlədən, redaksiya heyətində dəyişikliklər və ora yeni gənc kadrların cəlb olunması məsələləri müzakirə edildi. Həmçinin, iclasda jurnalın baş redaktoru professor Qüdrət İsmayılzadənin "Biblioqrafik məlumat toplusu", baş redaktorun müavini Tarix Dostiyevin "Arxeoloji lüğət" adlı yeni çap olunmuş kitabları onların iştirakı ilə təqdim olundu.

İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Tarix və arxeologiya departamentinin müdiri dosent Roza Arazova, baş redaktorun müavini Bəhlul İbrahimli, Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanov, assistent Kəmalə Mustafayeva iştirak edirdilər.

On September 11, the Khazar University Department of History and Archeology held a meeting of the editorial board to publish the next issue of the Azerbaijan Archeology Journal. The meeting reviewed articles that are expected to be published in the journal, it also discussed further improvements to the journal's website, international standards and indicators, including changes to the editorial board and involvement of young professionals. Furthermore, within the work of the meeting the new books were presented: published by Professor Gudrat Ismailzada, Jorunal's Editor-in-chief, entitled "Bibliographic Collection" and by Tarikh Dostiyev, Deputy Editor-in-Chief, entitled "Archeological Dictionary".

The meeting was attended by the Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Roza Arazova, Head of the Department of History and Archeology, Professor Gudrat Ismailzada, Jorunal's Editor-in-chief, and his Deputy Editors Bakhlul Ibrakhimli and Tarikh Dostiyev; and Orkhan Zamanov, Instructor at the Department of History and Archeology and Assistant Kamala Mustafayeva.




# DEPARTAMENT MÜDİRİ AVROPA ŞURASI KONFRANSININ MODERATORLUĞUNU ETDİ

Sentyabrın 11-də Avropa Şurasının Azərbaycandakı ofisi və Fransa səfirliyinin təşkilatçılığı ilə "Bizim hüquqlarımız, azadlıqlarımız, Avropamız" adlı yüksək səviyyəli konfrans keçirildi. Konfrans Avropa Şurasının 70 illik yubileyi və Fransanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi münasibətilə keçirilirdi. Konfransda Avropada insan hüquqları, demokratiya və qanunun aliliyinin təşviqində Avropa Şurasının tarixi rolu, habelə, təşkilat və üzv dövlətlərin qarşılaşdığı hazırkı və gələcək çağırışlar müzakirə olundu.

Konfransın əsas məruzəçiləri qismində Avropa Şurası Parlament Assambleyasının prezidenti Liliane Maury Pasquier və Azərbaycan Respublikasının Ombudsmanı professor Elmira Süleymanova çıxış etdilər. Əsas məruzəçilərin çıxışından sonra konfrans öz işinə panel müzakirə ilə davam etdi. Panel müzakirə Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin sədri Səməd Seyidov, Avropa Şurası İnsan Hüquqları və Qanunun Aliliyi şöbəsinin müdiri Kristos Giakoumopoulos, Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini Mahmud Məmmədquliyev, Ədliyyə Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti İlqar Qurbanov, Avropa Şurası Siyasi Məsələlər Direktorluğunun Etibar Tədbirləri Şöbəsinin müdiri Anna Capello-Brillat və Türkiyənin Orta Doğu Teknik Universitetinin Avropa məsələləri üzrə müəllimi və hazırda ADA Universitetində qonaq-professor olaraq çalışan Dr. Ayca Ergünün iştirakı ilə təşkil edilmişdi. Konfrans Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departameninin müdiri Dr. Elmar Mustafayevin moderatorluğu ilə keçirildi.

# CHAIR OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT MODERATES COUNCİL OF EUROPE CONFERENCE

On September 11, the Council of Europe Office in Azerbaijan and the Embassy of France in Azerbaijan organized a high-level Conference "Our Rights, our Freedoms, our Europe" on the occasion of the 70th anniversary of the Council of Europe and the French Presidency of the Committee of Ministers of the Council of Europe. The Conference discussed the historic role of the Council of Europe in promoting human rights, democracy and the rule of law in Europe, as well as at the current and future challenges to be met by the Organization and its Member States.

The keynote speakers of the Conference included Ms. Liliane MAURY PASQUIER, President of the Parliamentary Assembly of the Council of Europe and Prof. Elmira Suleymanova, Ombudsperson of the Republic of Azerbaijan. Following the keynote speeches, the Conference continued the proceeding with a panel debate. The panelists of the debate included Prof. Samad Seyidov, Chair of the Azerbaijani Delegation at the Parliamentary Assembly of the Council of Europe; Mr. Christos Giakoumopoulos, Director General of the Directorate for General Human Rights and Rule of Law of the Council of Europe; Mr. Mahmud Mammad-Guliyev, Deputy Foreign Minister of the Republic of Azerbaijan; Mr. Ilgar Gurbanov, President of the European Commission for the Efficiency of Justice; Ms. Anna Capello-Brillat, Head of Confidence Building Measures Division of the Council of Europe's Directorate of Political Affairs; Dr. Ayca Ergun, Professor of European Affairs at Middle East Technical University and visiting Professor at ADA University. The high-level Conference was moderated by Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department of Khazar University.





# XƏZƏR UNİVERSİTETİNDƏ YENİ DƏRS İLİ BAŞLADI

# START OF NEW ACADEMIC YEAR AT KHAZAR UNIVERSITY

Sentyabrın 16-da Xəzər Universitetində 2019/2020-ci tədris ilinin açılış mərasimi oldu. Xəzər Universitetinin himninin ifasından sonra universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı nitq söylədi, universitetə yeni qəbul olunmuş tələbələri, onların valideynlərini təbrik etdi, uğurlar arzuladı.

Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova da çıxış edərək, universitetdə tələbələr üçün yaradılan təhsil şəraiti və onların hərtərəfli inkişafını təmin edən proqramların həyata keçirilməsindən danışdı.

Professor Hamlet İsaxanlı, dosent İradə Xəlilova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Hassan Niknafs, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov və Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova universitetin müxtəlif ixtisaslarına yüksək balla qəbul olunmuş tələbələrə tələbə biletləri və qiymətli hədiyyələr təqdim etdilər.

Universitetə qəbul olunmuş tələbələr adından Nicat Hacıyev çıxış edərək, onlara göstərilən etimadı uğurlu təhsilləri ilə doğruldacaqlarını bildirdi.

Sonra universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru dosent İsaxan İsaxanlı yeni qəbul olunmuş tələbələri auditoriyalara dəvət etdi.

Tədbirdə Xəzər Universitetinin rəqs ansamblı və Xəzər Universitetinin müəllimi, M. F. Axundov adına Akademik Opera və Balet Teatrının solisti Məhsəti Cabbarlı müxtəlif rəqs və musiqi nömrələri ilə çıxış etdilər.

On September 16, the opening of the 2019/2020 academic year was held at Khazar University. After the performance of University's anthem, Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, delivered speech, congratulating students and their parents and wishing them every success.

Associate Professor Irada Khalilova, the Rector of the University, also delivered talk and spoke about the educational environment created at the University for students and the implementation of programs to ensure their comprehensive development.

Professor Hamlet Isakhanli, Associate Professor Irada Khalilova, Hassan Niknafs, Dean of the School of Sciences and Engineering, Jeyhun Mammadov, Dean of School of Economics and Management, and Elza Samedova, Dean of the School of Humanities, Education and Social Sciences, presented student tickets and valuable gifts to those students, who gained high scores during entrance exams in different majoring subjects.

Speaking on behalf of the students admitted to the University, Nicat Hajiyev said they would justify the trust shown to them by successful education.

Following that, Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs invited new students to proceed to the auditoriums.

Khazar University Dance Ensemble and Mahsati Jabbarli, Khazar University teacher, soloist of the Academic Opera and Ballet Theater named after M. F. Akhundov, performed a variety of dance and music numbers at the event.








#Lev Nikolayeviç Tolstoy
#Victor Hugo
#Eşq və Qürur
#Agatha Christie
#Çalıkuşu
#Arthur Conan
William Shakespeare


#Çalıkuşu
#Oğuz
#Arthur Conan Doyle



# MULTİMEDİA MƏRKƏZİ YAY İSTİRAHƏTİNDƏ
## Ismayıllı rayonu
# MULTIMEDIA CENTER ON SUMMER VACATION
## Ismayilli region

















## "XƏZƏR"İN ƏMƏKDAŞININ TƏRCÜMƏÇİSİ VƏ NAŞİRİ OLDUĞU KİTAB ÇAPDAN ÇIXIB

"Gənc Psixoloqlar" İctimai Birliyi və "Köhlən" nəşriyyatının birgə əməkdaşlığı ilə rusiyalı alim, psixologiya üzrə elmlər doktoru, professor Aleksandr Venger`in "Psixoloji rəsm testləri" ("Психологические рисуночные тесты") kitabı çapdan çıxıb. Kitabda verilmiş rəsmlərə əsasən insanın xüsusiyyətlərini müəyyənləşdirmək, eləcə də gerçəkliyin müxtəlif tərəflərinə münasibətini müəyyənləşdirmək mümkündür.

Ölkəmizdə rəsmli testlərin tətbiqinə və onların əsasında uşaq və böyüklərin "psixoloji portreti"nin tərtib olunmasına dair ilk illustrasiyalı vəsait olan bu kitabın tərcüməçiləri Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan köməkçisi Nizami Əliyev (o həm də kitabın naşiridir) və BDU Psixologiya kafedrasının müəllimi Səyyarə Yusubova, redaktoru Xəzər Universiteti Psixologiya departamentinin müəllimi Aytac Səlimovadır.

Kitab psixoloqlar, pedaqoqlar və tələbələr üçün nəzərdə tutulmuşdur.




## BOOK TRANSLATED AND PUBLISHED BY KHAZAR UNIVERSITY'S EMPLOYEE BEEN RELEASED

"Psychological Drawing Tests" ("Психологические рисуночные тесты") by Professor Alexander Wenger, Russian scientist, Doctor of Psychology, were published in cooperation with "Young Psychologists" Public Union and "Köhlən" publishing house. Based on the illustrations presented in the book, it is possible to identify the characteristics of a person, as well as to determine a person's attitude towards different aspects of reality.

The translators of the first illustrative book in our country on the use of drawing tests and the creation of a "psychological portrait" of children and adults based on these tests, are Nizami Aliyev, Dean's Assistant at the School of Humanities, Education and Social Sciences, Khazar University (he is also the publisher of the book), and Sayyara Yusubova, teacher of the Psychology Department at BSU, and the editor is Aytac Selimova, instructor at the Psychology Department, Khazar University.

## "XƏZƏR XƏBƏR"İN ƏMƏKDAŞININ KİTABÇASINDAN İCMAL "ANADOLU" QƏZETİNDƏ

## KHAЯAR REVIEW EMPLOYEE'S BOOKLET OVERVIEW IN ANADOLU NEWSPAPER

Xəbər verdiyimiz kimi, "Xəzər Xəbər" yurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayevin "Qur`anın tərcüməsinə dair bəzi mülahizələr" kitabçası çapdan çıxmışdır.

Kitabçada müəllif Qur`anın rus və ingilis dillərinə tərcüməsində "kafir", Azərbaycan, türk və rus dillərinə tərcüməsində "Məscid-əl həram", "Beyt-əl həram", "şəhr-əl həram" və "cümməl" sözlərinin yanlış tərcümə edildiyini əsaslandırır və düzgün tərcümə modellərini təklif edir.

Türkiyədə çıxan "Anadolu" qəzetinin 2019-cu il 9 və 18 tarixli nömrələrində kitabçadan Qur`anın türkcəyə tərcüməsi ilə əlaqədar hissəsinin icmalı Azərbaycan Respublikası Prezident Administrasiyasının "Respublika" qəzetinin Türkiyədə xüsusi müxbiri Əflatun Nemətzadənin müəllifliyi ilə çap edilmişdir.

As it was previously reported, the booklet on "Some Considerations on Translation of the Kur'an" by Alirza Balayev, the Deputy editor-in-chief of Khazar Review Journal, has been published.

In this booklet the author substantiated the incorrect translation of the words "Kafir" in the Russian and English translations of the Kur'an, "Masjid al-Haram", "Beit al-Haram", "Shahr al-haram" and "jummal" in the translation into Azerbaijani, Turkish and Russian, and offered correct translation models.

A summary of the part related to the translation of the Kur'an into Turkish has been published in "Anadolu" newspaper, issues no. 9 and 18 of 2019, authored by Aflatun Nemetzade, Special correspondent in Turkey of the "Respublika" newspaper, under the Presidential Administration of the Republic of Azerbaijan.

www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2018-2019-CU TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU ELANI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə bilik və tərbiyə ilə yanaşı, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-XI
İNGİLİS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və Diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə şahmat, kompüter, psixologiya, rəsm,texnologiya, musiqi, rəqs, dram və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarlq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK.
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB. BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF EDƏCƏKSİNİZ.

Bakı, Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt, Bakı küçəsi 37
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informatika müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat uçotu və audit
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm və otelçilik
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya

### 5 QRUP

* Dizayn